İsmayıl İsmayılov

# Bizim Qala

Bakı-2022



"Şuşa Azərbaycanın ən əziz və böyük tarixi olan bir guşəsidir. Şuşanı yaradanlar, Şuşa şəhərini quranlar, Şuşa qalasını tikənlər Azərbaycan torpağının sahibləri olublar və Qarabağda Azərbaycan torpağının daim qorunması, saxlanması üçün Şuşa şəhərini, qalasını yaradıblar. Bu, Azərbaycan xalqının, əcdadlarımızın yaratdığı böyük abidədir, təkcə şəhər deyil, böyük bir tarixi abidədir. Bu şəhərdə, onun ətrafında Azərbaycan xalqının bir neçə əsrlik tarixə malik böyük mədəniyyəti, mədəni irsi, qəhrəmanlıq nümunələri yaranıbdır. Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün, vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir".

**Heydər Əliyev**




Əziz Şuşa, sən azadsan!
Əziz Şuşa, biz qayıtmışıq!
Əziz Şuşa, biz səni dirçəldəcəyik!
Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

**Azərbaycan Respublikasının Prezidenti**
**Silahlı Qüvvələrin Ali Baş Komandanı**
**İlham Əliyev**

**Redaktoru Kərim Kərimli**

İsmayıl İsmayılov
**Bizim QALA**
Bakı, "Zərdabi Nəşr" MMC, 2022, 208 səh.

Kitabda Şuşa şəhərinin özünəməxsus zəngin memarlığını əks etdirən olduqca maraqlı və bir çox oxucular üçün yeni olan məlumatlar əksini tapıb. Burada Şuşa şəhərinin 8 may 1992-ci ildə işğala məruz qalması və 44 günlük Vətən müharibəsi nəticəsində 8 noyabr 2020-ci ildə müzəffər ordumuzun şücaəti sayəsində azad edilməsinə də toxunulub. İşğaldan azad ediləndən sonra şəhərdə və digər azad edilmiş ərazilərdə aparılan geniş miqyaslı bərpa, təmir və quruculuq işlərindən, Şuşada artıq ənənəyə çevrilmiş mədəni tədbirlərin keçirilməsindən də qısa şəkildə məlumat verilir. Kitabda məhz Şuşanın Azərbaycana, Azərbaycan xalqına məxsusluğunun maddi sübutu olduğuna görə mənfur düşmən tərəfindən dağıdılmış yüzlərlə memarlıq abidəsinin işğala qədər və azad ediləndən sonra eyni rakursdan çəkilmiş şəkillərinin geniş şəkildə verilməsi və müqayisəli təqdim edilməsi erməni vandalizminin dəhşətli miqyasını əyani surətdə göstərir.

İnanırıq ki, müəllifin böyük zəhməti hesabına başa gəlmiş kitab oxucular tərəfindən maraqla qarşılanacaq, mütəxəssislərin və digər maraqlanan şəxslərin stolüstü kitabına çevriləcək.

**ISBN 978-9952-553-68–0**

© İsmayıl İsmayılov, 2022

# Müəllifdən

Uzun illər ərzində müqəddəs torpaqlarımız düşmən tapdağı altında olduğu müddətdə, biz bir gün bu torpaqlara qayıdacağımıza hər an əmin olmuşuq, buna heç vaxt şübhəmiz olmayıb. Çünki bu torpaqlar bizim əzəli ata-baba yurdumuzdur. Bu illər ərzində hər birimiz bizdən qoparılan Qarabağımıza qayıtmağımız, müqəddəs torpaqlarımızı dirçəldəcəyimiz günün tez yetişməsi üçün əlimizdən gələni etmişik. Hər bir vətəndaşımızı birləşdirən və bizim üçün müqəddəs dəyər olan Qarabağ uğrunda uzun sürən haqq savaşımız, nəhayət öz bəhrəsini verdi. Biz Qarabağımıza, Şuşamıza qayıtdıq.

Bu qələbəni əldə etmək üçün müzəffər ordumuz qəhrəmanlıq göstərdi, bu qələbə uğrunda şəhidlərimiz, qazilərimiz oldu. Bu sevincli qələbə günlərini onların qəhrəmanlığı və Ali Baş Komandanın uğurlu siyasi addımları sayəsində yaşadıq.

Şəhidlərimizin canı, qazilərimizin qanı bahasına qayıtdığımız müqəddəs torpaqlarımızda qədim köklərimizi möhkəmləndirəcək, bir daha xalqımızın başına bu illər ərzində gətirilmiş müsibətlərin təkrar edilməsinə yol verməyəcəyik.

Bu illər ərzində Qarabağdan ayrı düşməyimiz ocağımızın başına buraxdığımız düşmənin əsil üzünü də bizə göstərdi. Xalqımıza qarşı əsası olmayan hədsiz kin bəsləyən düşməni yaxşı tanıdıq. Hamımız anladıq ki, məkrli düşmənə qarşı daim ayıq olmalıyıq.

Şuşamız işğal altında olanda da, işğaldan azad olunandan sonra da hər birimiz Şuşamıza can atmışıq. İndi isə o müqəddəs şəhərimizin dirçəldilməsi işinə öz töhvəmizi verməyə tələsirik. Vətənini həyatından da artıq sevən Azərbaycan vətəndaşları, vətənimizə qarşı çıxanların, müqəddəs torpaqlarımıza göz dikənlərin qarşısında keçilməz bir səddir, sipərdir.

Yaşasın həyatda mövcud olan bütün təriflərə laiq Azərbaycanımız, yaşasın Azərbaycan xalqı!

# Bizim Qala

Əziz həmvətənlər! Bu kitab-albomu da əziz Şuşamıza həsr edirik. Bundan əvvəl, hələ Şuşamız erməni işğalı altında olanda, 2015-ci ildə “Azərbaycan mirvarisi Şuşa” adlı kitab tərtib etmişdim. Həmin kitabda Şuşanın əsasının qoyulduğu vaxtdan işğala məruz qaldığı və işğal altında olduğu vaxtadək dövrü əhatə edən və şəkillərlə müşayət olunan məlumatlar toplanıb. Odur ki, bu kitabda Şuşanın tarixinə təkrarən toxunmayacağıq. Bu dəfə, dünyanın bütün şəhərlərindən yaxşı mənada fərqlənən, özünəməxsus Şuşamızın işğal altında olduğu müddətdə aldığı yaralardan və işğaldan azad olunaraq öz doğmalarına qovuşmasından danışacağıq.

Qarabağ xanlığının daha təhlükəsiz, müdafiə baxımından daha əlverişli qala-paytaxta ehtiyacı olduğundan Pənahəli xan qala-şəhər salınması üçün bu gün Şuşamızın yerləşdiyi platonu seçmişdi. Həqiqətən də Şuşa üçün seçilmiş ərazi relyefin mürəkkəbliyi ilə əlaqədar strateji baxımdan bütün zamanlarda çox əlverişli olub.

Beləliklə Şuşanın əsası qoyuldu, özü də qala-şəhər, xanlıq paytaxtı kimi qoyuldu. Yəni, Şuşa kiçik yaşayış məntəqəsinin böyüməsi nəticəsində şəhərə çevrilməmişdir. Onun əsası birbaşa şəhər olaraq qoyulmuşdur. Ancaq bütün bunlarla yanaşı Şuşa eyni zamanda həm də bir mədəni şəhər, paytaxt olmalı idi. Bu səbəbdən də buraya ilk olaraq memarlar, zadəganlar, ziyalılar, sənətkarlar, alimlər, musiqiçilər, müəllimlər və digər sənət sahibləri dəvət olunmuşdur. Bura yeni şəhərin əsasının qoyulması və inkişaf etdirilməsi işinə töhvə vermək istəyən insanlar toplaşdılar. O insanların bu işə böyük sevgisi və həvəsi olmuşdur. Çünki mürəkkəb relyefi olan ərazidə şəhər salmaq böyük enerji və vaxt tələb edirdi. Ona görə də demək olar ki, şəhərin əsasının qoyulması işinə fədakar insanlar cəlb olunmuş və belə insanlar sonradan həm də yaxşı mənada fərqli şuşalı cəmiyyətini yaratmağa başlamışlar. Nəticədə hər mənada çox gözəl, inkişaf etmiş orta əsr Avropa şəhərləri ilə ayaqlaşan yeni bir Azərbaycan şəhəri yarandı. Sayı kifayət qədər olan məktəblər, mədrəsələr açıldı və şəhər qısa müddət ərzində çox inkişaf etdi. Beləliklə Şuşada böyük ziyalı ordusu yarandı. Bu ziyalılar Azərbaycanımızın dünya miqyasında tanınmasında, Azərbaycanımızın inkişafında əvəzolunmaz rol oynadılar. Bu inkişafın nəticəsində şuşalı gənclər təhsil almaq üçün artıq Avropaya üz tuturdular. Bu isə şəhərdə Avropa dəbinin də yayılmasına səbəb olurdu. Şəhərdə geyimdə, ev əşyalarında, kulinariyada milli dəyərlərlə yanaşı Avropa üslu-

bu və dəyərləri də hökm sürürdü. Bütün sadalananlar şəhərin memarlığından da yaxşı mənada yan keçməmişdir. Bildiyiniz kimi şəhərdə 17 məhəllə salınmışdır. Hər məhəllənin özünün meydanı, məscidi, bulağı və hamamı olub. Şəhərdəki evlər iki və üç mərtəbəli, böyük ölçülü və sayı çox olan iri pəncərəli və eyvanlı olmaqla yerli mərmər daşdan tikilirdi. Pəncərələr şəbəkə üslubunda düzəldilir, mərtəbələr arası məsafə daş ornamentlərlə bəzənir, evin damı kirəmitlə örtülürdü. Hər evin üzərində məlumat daşıyıcısı olan daş kitabəsi olurdu. Bu kitabədə mütləq Quran ayəsi və bir çox hallarda evin inşa edilmə tarixi, memarın və sahibinin adı da əks olunurdu.



Şuşa şəhərinin yerləşdiyi yayla (plato)

Şuşada qış fəslinin çox sərt keçməsi və yağıntının çox olması ilə əlaqədar evlərin damlarının qırılma buçağı çox iti qoyulurdu ki, damın üstünə yağan qar çox qalıb ağırlıq etməsin. Evlərin inşası şəhərin təsdiq edilmiş baş planına uyğun aparılırdı. Həyətyanı sahələr əsas küçəyə baxmırdı, mütləq şəkildə evin arxasında olmalı idi. Mülklərin hasarları bir məhəllədəki evin arxasında yerləşən həyətyanı sahə ilə digər məhəllənin əsas küçəsinə baxan evin arxasında yerləşən həyətyanı sahəsinin arasında olardı. Bu səbəbdən də əsas küçələrdən həyətyanı sahələr ümumiyyətlə görünmür, küçədən birbaşa giriş qapısından evlərə daxil olmaq olurdu. Şuşadakı evlərin hamısının pəncərə və qapıları birbaşa küçəyə baxırdı. Ona görə də şəhərdə gəzən insan hasarla

deyil, gözəl haşiyəli pəncərə və qapıları olan evlərlə rastlaşırdı. Küçələrə yerli mərmər daşlar döşənir, piyadalar üçün iri sal mərmər daşlardan səkilər qoyulur, küçələrdə isə rahat şəkildə faytonlar, arabalar hərəkət edə bilirdi.



Mamayı məhəlləsi. Bu məhəllədəki evlər
XIX əsr memarlıq abidələridir.
Şəkil ötən əsrin əvvəllərində çəkilib.

Şuşanın çox uğurla işlənmiş böyük ölçülü, divarları daşla hörülmüş kanalizasiya sistemi olub. Bəzi məlumatlara görə kanalizasiya xəttlərinin içərisində iki atlı yanaşı  sərbəst hərəkət edə bilirmiş. Şəhərin çox təmiz olmasının əsas səbəblərindən biri də belə mükəmməl kanalizasiya sisteminin qurulması idi.

Şəhərin təmiz olmasının digər bir səbəbi isə Şuşa platosunun aşağı hissəsi ilə yuxarı hissəsinin arasında dəniz səviyyəsindən yüksəklikdə 300 metrə

qədər fərqin olmasıdır. Yəni Çuxur məhəllənin yerləşdiyi ərazinin dəniz səviyyəsindən yüksəkliyi 1300 metr təşkil etdiyi halda, Köçərli və Mamayı məhəllələrinin yuxarı hissəsinin yerləşdiyi ərazinin dəniz səviyyəsindən yüksəkliyi 1600 metrə yaxındır.

Burada bir haşiyə çıxmaq istərdim. Relyefin belə kəskin fərqli olması səbəbindən şəhərin aşağı hissəsində meyvələr, əsasən də tut meyvəsi artıq sovulduğu vaxt, yuxarı hissədə yenicə yetişir. Yəni piyada cəmi 15 dəqiqə ərzində şəhərin yuxarı hissəsinə getməklə aşağı hissədə artıq sovulmuş meyvədən yenidən dadmaq mümkündür.



Şuşa şəhərinin yerləşdiyi platonun cənub-şərqdən görünüşü

Bu səbəbdən yağış suları da bir yerdə toplanıb qalmır, axıb gedirdi. Küçələr isə ağ mərmər daşlarla döşənmiş olduğundan yağışdan sonra şəhər daha təmiz, daha təravətli olurdu. Lap şüşə kimi. Bəzi mülahizələrə görə Pənahabad adlandırılmış şəhərin adının sonradan dəyişdirilərək Şuşa qoyulmasının səbəblərindən biri də şəhərin şüşə kimi şəffaf olmasından irəli gəlib. Yəni, “Şüşə” - “Şuşa”.

Onu da xüsusilə vurğulamaq vacibdir ki, Şuşanın el arasında tanınmış daha bir adı Qaladır. Bu gün də yaşlı nəslin nümayəndələri Şuşanın adını “Qala” kimi çəkirlər. XX əsrin ortalarına kimi isə insanların əksəriyyəti Şuşaya Qala deyərdilər. Bu da şəhərin eyni zamanda qala olmasından irəli gəlir.



Şuşada XIX əsrdə tikilmiş kanalizasiya kollektoru



Mamayı məhəlləsi

Ələxsus da şəhər ətrafında yerləşən kəndlərin sakinləri Şuşaya gedib qayıdarkən “Qalaya gedirəm”, “Qaladan gəlirəm” kəlmələrini işlədirdilər.

Bir sıra evlərin memarlıq üslubu bütün zamanlarda aktual olub. Məsələn, Cahangir xanın evinin (Şuşa rayon Polis Şöbəsinin yerləşdiyi bina) giriş qapısı blok sistemlidir. Küçədən başı xonçalı giriş qapısından içəri girəndən sonra pilləkənlərlə yuxarı qalxıb otaqlara daxil olursan. Evin pəncərələri döşəməyə çox yaxındı, yəni döşəmədən ən çox 20 sm. hündür qoyulub. Faytonun həyətə girişi üçün binanın özündə iri darvaza var. Belə evlərdə, hələ XIX əsrdə, ikinci və hətta üçüncü mərtəbələrdə hamam otağı olurdu. Çirkab suyun axıdılması üçün sal mərmər daşlardan sifon tipli axarlar düzəldilirdi ki, bu da borudan xoşagəlməz qoxu gəlməsinin qarşısını alırdı.



XIX əsrdə Şuşadakı evlərin yuxarı mərtəbələrində olan hamam otağında suyun kanalizasiya sisteminə axıdılması üçün yerli mərmərdən hazırlanmış sifon rolunu oynayan aksesuar.

Ötən əsrin 80-ci illərində Şuşa Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin rəhbəri Tofiq Süleymanovun təşəbbüsü ilə Şuşa şəhəri və ətraf ərazilərdə aparılan axtarışlar zamanı daş kitabələr, yerli mərmərdən hazırlanmış müxtəlif bu kimi eksponatlar aşkar edilib toplanaraq, Şuşa qalasının Gəncə qapısı yaxınlığında açıq səma altında muzey təşkil edilmişdi.

Eyni sözləri Hacı Qulunun, Xan qızı Natəvanın, Bəhmən Mirzə Qacarın, Əsəd bəyin, Mehmandarovların və b. saray komplekslərinə daxil olan evlər, Hacı Bəşirin, Hacı Dadaşın, Zöhrabbəyovların və b. malikanələri və bir çox digər evlər barədə də demək olar.



Qarabağ taciri Hacı Qulunun malikanəsi. 1851-ci ildə inşa edilmişdir.
Ölkə əhəmiyyətli memarlıq abidəsidir.
Milli dəyərlər nəzərə alınmaqla tikilmiş 3 mərtəbəli sarayda
46 otaq və 2 böyük qonaq zalı olub.



Əsəd bəyin evinin üzərindəki daş kitabə. Ev memarlıq abidəsidir.



I gildiya şuşalı tacir Məhəmməd Tağızadə xanımı Mehparə xanımla. Şuşa. 1911-ci il.

Fərdi yaşayış evləri ilə yanaşı Şuşanın ictimai binaları da çox möhtəşəm tikililərdən ibarət idi. Bura məscidlər, mədrəsələr, karvansaraylar, dükkanlar, hamamlar, teatr binaları və s. aid etmək olar. Şuşada inşa edilən binaların əksəriyyətinin memarı məşhur memar Kərbəlayi Səfixan Qarabaği olub. Onun dəsti-xətti memarı olduğu bütün tikililərdə görünür.

Çox nəfis memarlıq üslubunu tətbiq edən Kərbəlayi Səfixan Aşağı və Yuxarı Gövhər Ağa, Saatlı, Çöl Qala və digər məscidlərin, o cümlədən Məşədi Şükür Mirsiyab oğlunun, Ağa Qəhrəman Mirsiyab oğlunun, Səfərov Qardaşlarının, Xanlıq Muxtarın karvansarayları, eyni zamanda "Şirin su" hamamının, Məşədi İbrahimin hamamının və başqa tikililərin memarı olmuşdur. Kərbəlayi Səfixan bundan başqa Ağdam cümə məscidinin, Füzuli, Horadiz, Zəngilan və Bərdədə olan məscidlərin, bəzi məlumadlara görə Odessa və Aşqabadda da XIX əsrdə inşa edilmiş məscidlərin müəllifidir.

Şuşada maddi baxımdan imkanlı şəxslərin sayı çox olduğundan evlər biri digərindən maksimal dərəcədə dəbdəbəli tikilirdi. Bütün bu sadalananlar, Şuşanın çox gözəl bir şəhər olmasına səbəb oldu. Ümumiyyətlə, Şuşanın memarlığı barədə çox yazıb, çox danışmaq olar, bu tükənməz mövzudur.



Mamayı məhəlləsi. Şəkil ötən əsrin əvvəllərində çəkilib.



Şuşa evlərinin damları. Arxa fonda görünən Üç mıx qoruğudur.
Ötən əsrin ikinci yarısında qoruğun ərazisində əsasən şam
ağaclarından ibarət meşə salınmışdı.



Hacı Yusifli məhəlləsi.
Bu məhəllədəki evlərin əksəriyyəti XVIII əsr memarlıq abidələridir.
Şəkil ötən əsrin ikinci yarısında çəkilib.

Təəssüf ki, Şuşa şəhəri işğala məruz qalandan sonra erməni işğalçıları, şəhərin Azərbaycana aid olmasını təsdiq edən dəlilləri məhv etmək məqsədi ilə Beynəlxalq təşkilatların işğal olunmuş ərazilərdə tarixi abidələrin dağıdılmasının yolverilməzliyi barədə tələblərinə heç bir məhəl qoymadan sözün əsil mənasında möcüzələr diyarı olan Şuşanı yerlə yeksan etdilər.



9 may 1992-ci il. Erməni terrorçuları
Şuşanı talan edir və yandırırlar.

27 sentyabr 2020-ci ildə, torpaqları işğal altında saxlamaqla kifayətlənməyən erməni terrorçularının növbəti təxribatlarına cabab olaraq böyük haqq savaşı başladı. 1988-ci ilin əvvəllərindən başlamaqla, bütün çirkin əməllərə əl ataraq 1994-cü ilə kimi 6 il ərzində işğal etdiyi torpaqları 44 günə qoyub qaçdı mənfur düşmən. Gücü dinc əhali, qadın, uşaq, qoca və xəstəyə çatan bu terrorçular igid və hazırlıqlı Azərbaycan əsgərinin qarşısında tab gətirə bilməzdi. 1988-ci ildən 1994-cü ilə kimi bizə qarşı terror törətməklə xalqımızın ruhunu sındrmağa çalışırdı bu mənfur düşmən. Sərnişin avtobuslarını daşa, gülləyə tutmaqla, sakinlərimizi tək-tək izləyib girov götürməklə, öldürməklə, başqa terror əməllərinə əl atmaqla əliyalın, köməksiz və müdafiəsiz əhalinin gözünü qorxutmağa, doğma yurdundan didərgin salmağa çalışırdılar. Gücü yalnız əli yalın insanlara çatırdı bu düşmənin. Ən nəhayət, törətdikləri say-

sız-hesabsız cinayətlərə dünya dövlətlərinin göz yummasından quduzlaşan düşmənimiz, şəhər və kəndlərimizə hücumlar təşkil etməyə başladı. Bir sıra böyük dövlətlərin siyasi, maddi, həm də hərbi dəstəyi isə bu quduzları daha da azğınlaşdırdı. Nəticədə Xocalı soyqırımı kimi dəhşətli faciə törədildi. Xalqımızın müdafiəsinə qalxmış igid əsgərlərimiz isə vahid komandanlığın olmaması, ölkədə baş verən siyasi çəkişmələrin ağır nəticələrə gətirib çıxarması səbəbindən uğur əldə etməkdə çətinlik çəkirdilər. Lakin buna baxmayaraq, I Qarabağ savaşında da, o dövrdə hökm sürən çətin siyasi şəraitdə igid əsgərlərimiz düşmənə sarsıdıcı zərbələr vurmaqla qələbələr əldə edirdilər. Buna Goranboy rayonunun bir hissəsinin erməni terrorçularından təmizlənməsi, 1992-ci ilin yay aylarında Ağdərənin işğaldan azad olunması, Laçın rayonunun Hoçaz dağında mövqe qurulması və s. misal gətirmək olar. Lakin, yuxarıda qeyd etdiyimiz kimi, vahid komandanlığın olmaması, iri dövlətlətin Ermənistana hərtərəfli dəstək göstərməsi, problemin həllinə ikili standartlardan yanaşmaları bu uğurların davamlı olmasına mane oldu. Nəticədə xalqımıza qarşı qırğınlar Qaradağlıda, Malıbəylidə, Ağdabanda, Meşəlidə və başqa kəndlərimizdə də törədildi. Qırğınlar törədilən şəhər və kəndlərimiz işğal olunur, canını qurtara bilən dinc əhali doğma ocaqlarını tərk edir, erməni terrorçuları isə həmin yaşayış məntəqələrimizi əvvəl talan, sonra isə məhv edir, xarabalığa çevirirdi. Nəticədə bir çox şəhər və kəndlərimiz, o cümlədən Şuşamız işğala məruz qaldı.

Erməni terrorçularının hədəfinin dinc əhali olması özlərinin etirafları ilə də sübuta yetirilirdi. Ermənistanın keçmiş prezidenti, 1992-ci ilin fevral ayında qanunsuz separatçı rejimin "özünü-müdafiə qüvvələri komitəsi" adlandırılan terrorçu dəstənin rəhbəri olmuş Serj Sarkisyan jurnalist Tomas de Vaala müsahibəsində belə demişdi: "Xocalıdan əvvəl azərbaycanlılar fikirləşirdilər ki, onlar bizimlə zarafat edirlər, onlar fikirləşirdilər ki, ermənilər mülki əhaliyə əl qaldıra bilməz. Biz bu stereotipi qıra bildik". Jurnalistin minlərlə adamın ölməsindən təəssüf keçirdib-keçirmədiyi barədə sualına Serj Sarkisyan utanmadan belə cavab vermişdi: "Mən heç bir təəssüf keçirmirəm... hətta minlərlə əhali ölərsə bu cür sərt gedişlər zəruridir".

Erməni terrorçuları məhv etdiklərini etdilər, talan etdiklərini Qarabağdan çıxardılar. Ancaq yenə də dayanmadılar, sakitləşmədilər. Onlar artıq şəhərlərimizi erməniləşdirməyə başlamışdılar, maddi və mənəvi dəyərlərimizi erməni dəyəri kimi təqdim edir, tarixi saxtalaşdırırdılar. 8 may 1992-ci ildə Xankəndi şəhərində dislokasiya olunan SSRİ-dən qalma 366-cı motoatıcı alayının

hərbi texnikası və şəxsi heyətinin bilavasitə iştirakı ilə Şuşa şəhərini işğal edən erməni terrorçuları abidələr şəhəri olan Şuşanı böyük dağıntılara məruz qoydular. Şuşanı erməniləşdirməyə çalışan erməni vəhşiləri tarixi dəyərindən asılı olmayaraq şəhərin Azərbaycana məxsus olmasını təsdiq edən bütün abidələri darmadağın etdilər, abidələr üzərindəki tarixi lövhələri, daş kitabələri məhv etdilər. Erməni işğalçıları abidələr haqqında məlumatları saxtalaşdırmaq məqsədi ilə daş kitabələr üzərindəki məlumatları vəhşicəsinə məhv edir və onların üstündən həqiqətə uyğun olmayan məlumatlar yazmaqla abidələri erməniləşdirir, küçə və məhəllələrin adlarını dəyişdirərək ermənicə adlandırırdılar.

I Qarabağ müharibəsindən sonra çətin, uzun sürən, ədalətsiz danışıqlar prosesi başladı. Məkrli düşmən öz çirkin məqsədlərinə çatmaq üçün bu vəziyyətdən də sui-istifadə etməyə çalışdı. Onlar öz havadarlarının köməyi ilə Qarabağ probleminin dinc yolla nizamlanmasına yönəlmiş danışıqlar prosesini süni surətdə uzatmaqla nəsillər dəyişdikcə, canlı şahidlərin dünyadan köçməsi nəticəsində Qarabağın Azərbaycan xalqı tərəfindən unudulacağına ümid bəsləyir və, elə zənn edirdilər ki, Azərbaycanda dünyaya göz açmış yeni nəslin nümayəndələri görmədikləri dəyər uğrunda mübarizə aparmayacaqlar. Ancaq ermənilərin bu cəhdləri əks effekt verdi. Bu dəfə Qarabağ uğrunda savaşa əsasən Qarabağı heç vaxt görməyən gənclərimiz qalxdı və bununla ermənilərin bu stereotipini də qırdı. Çünki Azərbaycan xalqı bu torpaqlara bütün qəlbi, ruhu, qanı və canı ilə bağlıdır. Gənclərimiz bu torpaqlarda heç vaxt olmasalar belə, bura bütün varlıqları ilə bağlıdırlar. Çünki Qarabağ Azərbaycanın əzəli torpağıdır, Qarabağ - Azərbaycandır!

Bu dəfə erməni terrorçularının qarşısında hazırlıqlı, vahid komandanlıq altında birləşlmiş, bütün müasir silah və avadanlıqlarla təchiz edilmiş ordu dayanmışdı. Qarabağın işğalından sonra dünyaya gəlmiş, erməni təbliğat maşınının "tərbiyəsi" altında böyümüş yeni nəsil ermənilər, "qəhrəmanlıq" nağıllarının təsiri nəticəsində Azərbaycan Ordusunun gücünə heç vaxt inanmazdılar, odur ki, özlərini məğlubedilməz hesab edirdilər. Ancaq Azərbaycan ordusu nələrə qadir olduğunu düşmənə nümayiş etdirdi.

Və nəhayət, o gün gəldi! Qəlbimizdə sevincdən yaranan qəhərlə, gözlərdə sevincdən yaranan yaşlarla, sözlə ifadə edilməyən qarışıq hisslərlə gəldi illərdir həsrətlə gözlədiyimiz o gün. Ali Baş Komandanımızın bu sözləri ilə gəldi o gün: "Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik!" Bu sözlər qurumuş və cadar-cadar olmuş torpağa hopan

dupduru sərin su kimi axdı qəlblərimizə. Uşaqdan böyüyə hər kəsi duyğulandırdı bu sözlər. 44 günlük Vətən müharibəsi ərzində bütün Qarabağ işğaldan azad edildi. Ali Baş Komandan cənab İlham Əliyev Şuşanın azad olması xəbərini də tam fərqli elan etdi. Çünki Şuşa daşlardan tikilmiş adi bir şəhər deyil, o, canlı orqanizmdir, onun ruhu var - azərbaycanlı ruhu. O düşmən əlinə keçən gündən zahiri görkəmini bürümüş bir qəmginliklə sanki düşmənə təslim olmadığını və bu yolla onunla azadlıq uğrunda mübarizə apardığını göstərməyə çalışırdı. O, öz doğmalarını - bizi gözləyirdi. Onu xilas etmək hər birimizin borcu idi. Azərbaycanlılarsız Şuşa heç vaxt çiçəklənə bilməzdi.

Elə buna görə də Ali Baş Komandan Şuşanın azad olunması xəbərini verərkən, sanki canlıya müraciət etdi. Sanki, o, əsirlikdən azad edilmiş Azərbaycan vətəndaşına müraciət etdi. Bəli, Şuşa doğrudan da canlıdır və o, azərbaycanlıdır. O bizim atamız, anamız, qardaşımız, bacımızdır. O, həqiqətən də Azərbaycan vətəndaşıdır, özü də daimi vətəndaşı. Atalarımızdan, babalarımızdan bizlərə əmanət qalan və gələcək nəsillərə əmanət kimi ötürüləcək dəyərimizdir.



Qəhrəman hərbçilərimiz Şuşa rayon İcra Hakimiyyətinin inzibati binasının qarşısında Şuşanın işğaldan azad olunması xəbərini elan edirlər



Şuşanın işğaldan azad edilməsi uğrunda mərdliklə döyüşən qəhrəman Azərbaycan əsgərləri



İgid əsgər və zabitlərmizin Şuşaya qalxmaq üçün ram etdiklər sıldırım qayalar



Şuşanın azad edilməsi xəbəri bütün ölkə ərazisində qələbə sevinci ilə qarşılandı

Müharibə başlayan ilk gündən Ali Baş Komandanın xalqa müraciətlərində işimizin haqq işi, məqsədimizin Qarabağın azad edilməsi, Şuşasız işimizin yarımçıq qala bilməsi kimi sözləri hər birimizdə, ən əsası isə əsgərlərimizdə qələbəyə inamı artırırdı. Və sonda uğurlu siyasət, vahid komandanlıq, xalqımızın birliyi, müzəffər ordumuzun qəhrəmanlığı xalqımıza qələbə sevincini yaşatdı. Düşmən kapitulyasiya aktını imzalamağa məcbur oldu. Və 44 günlük savaş qələbə ilə başa çatdı.

Tarixi günlər yaşadıq, xoşbəxt olduq, Azərbaycan xalqı nələrə qadir olduğunu bütün dünyaya göstərdi. Bu günləri özümüzə hər birimiz yaşatdıq, hərəmiz öz sahəmizdə bu günü qarış-qarış yaxınlaşdırmaq məqsədi ilə əlimizdən gələni etdik. Ancaq əlbətdə ki, ən ağır yük müzəffər ordumuzun üzərinə düşdü. Şəhidlərimiz, qazilərimiz oldu. Onlar bəxş etdilər bu qələbəni bizə.

Bu qələbəyə nail olmaq siyasi arenada da düşünülmüş addımların atılmasını tələb edir. Əks halda məsələyə ikili standartlardan yanaşan iri dövlətlərin təsirindən yan keçmək mümkün olmazdı. I Qarabağ savaşından sonra ölkə rəhbərliyi qələbəni yaxınlaşdırmaq üçün durmadan çalışdı. Uğurlu siyasi addımlar bu günü yaxınlaşdırırdı.

Həqiqətən də, həm ölkə rəhbərliyinin, həm ziyalılarımızın, həm də sadə vətəndaşlarımızın dəstəyi sayəsində xalqımız bir an belə ümidsizliyə qapılmadı. Biz bu haqq işimizdə sonda qələbə qazanacağımıza əmin idik və nəhəng bir qüvvəyə çevrilən bu əminliyin sayəsində böyük qələbəyə nail olduq.

Bu qələbədən sonra hər kəs Qarabağın, Şuşanın artıq azad olması sevincini yaşayır, hər gün doğma yurduna dönəcəyi günü gözləyir.





Zəfər yolu. Şəkillər 16 iyul və 3 sentyabr
2021-ci ildə çəkilib.

Qısa müddət ərzində Şuşaya yeni yolun, elektrik xəttlərinin çəkilməsi, Füzulidə hava limanının inşası, infrastrukturun sıfırdan qurulması, saysız hesabsız nəhəng layihələrin əsasının qoyulması prosesinə başlanıldı.

Mənim Şuşaya ilk səfərim 2021-ci ilin mart ayında baş tutdu. Füzuli rayonunun ərazisində əvvəlki təmas xəttini keçirik. Bayaqdan maşında danışan, nələrisə müzakirə edən yoldaşlar, sanki elan edilmədən şəhidlərimizin ruhunu sükutla yad etməyə başlayırlar. Heç kəs danışmır, hamı susur. Burada necə ağır döyüşlərin getdiyini duymağa başlayırsan. Yol boyu mənfur düşmənin igidlərimiz tərəfindən zərgər dəqiqliyi ilə məhv edilmiş hərbi texnikasının qalıqları ilə rastlaşırsan və qarışıq hisslərlə yanaşı qürur duyursan, həyatda mövcud olan bütün gözəllikləri, müsbət keyfiyyətləri özündə cəmləmiş xalqın nümayəndəsi olmağınla fəxr edirsən. Şuşaya yaxınlaşdıqca bir daha anlayırsan ki, Azərbaycan Ordusu həqiqətən də mümkün olmayanları edib. Keçilməz yollardan keçməklə, sıldırım qayalara qalxa-qalxa döyüşərək misilsiz qəhrəmanlıq nümayiş etdirib igidlərimiz. Onların sayəsində bu yollarla gedə bilirik, vətənimizə qovuşa bilirik.

Gəlib Şuşamıza çatırıq... 28 ildir həsrət qaldığımız Şuşamızı artıq internet üzərindən, televiziyadan deyil, əyani surətdə, birbaşa görürük. Torpağına ayaq basır, xaraba qalmış evlərinin, küçələrinin daşlarına toxuna bilirik. Hava çox soyuq idi, ancaq soyuq daşlara toxunarkən bir istilik, doğmalıq səni daxildən isidir, Şuşanı oxşamaq, bağrına basmaq stəyirsən.

Belə bir ifadə var: “Bu hissləri sözlə ifadə eləmək çətindir!” Bu dəfə doğrudan da qarışıq hisslərin təsiri altında sözün əsil mənasında nə hiss etdiyini sözlə ifadə edə bilmirsən həmin anda. Şuşanın özündə Şuşadan doymursan. Artıq başa düşürsən ki, Şuşanı bir daha sənin əlindən heç kəs ala bilməz! Şuşanın azadlığını bax onda hiss edir insan. Şəhərdə tam başqa ab-hava hökm sürür. Burada adam ucadan danışmaq istəmir. Elə bilirsən yenə də bu mənzərəni hansısa bir pərdənin arxasından seyr edirsən. Çox maraqlı hisslərdi. Və eyni zamanda toxuna bilirsən. Elə bilirsən ki, şəhər uzun illər valideynlərindən, bacı-qardaşından ayrı düşmüş bir uşaqdır, sevinir, adama qucaq açır. Şəhərdə gəzəndə o qucağı hiss edirsən. Şuşanın səni qucaqladığını hiss edirsən. O əlləri, o qolları səni bağrına basdığını hiss edirsən. Elə bil, körpə uşaqdır Şuşa, bağrına basıb əzizləyirsən Şuşanı. Eə bil sən onun qucağında yox, o sənin qucağındadı. Elə bil ki, bütün şəhər sənin qəlbinə yerləşib. Doğrudan da sehrlidir bu şəhər. Bu şəhər bu qədər dahini səbəbsiz olaraq yetişdirməyib. Adam özü də o şəhərdə özünü başqa cür hiss edir. Elə bil sənə vergi verilib, elə bil qüvvən artıb, şəhər sənə enerji verir.

Bizim Şuşaya qayıtmağımıza kömək edən amillərdən biri də bu şəhərə ruhən bağlı olmağımız oldu. Və təbii ki, gənclərimiz, Şuşanı heç vaxt görməyən gənclərimiz. O gənclərimiz ki, görmədikləri şəhər, varlıq uğrunda canlarını fəda etdilər.

Biz Şuşanı azad etməklə özümüzü azad etdik. Özümüzü bütün ağırlıqlardan azad etdik. Çiynimizdən ağır bir yükü kənara atdıq. Çox uzaqlara atdıq. Bir də o yük bizim çiynimizə yüklənməyəcək. Bundan sonrası özümüzdən asılıdır. Hər birimizdən asılıdır. Hər birimiz əlimizdən gələni etməliyik ki, Şuşanı dirçəldək.

Təssüf ki, Şuşada olarkən onun da şahidi olursan ki, dağıntıların miqyası daha böyükdür. Mənfur düşmən şəhərdə olan barmaqla sayılacaq bir neçə evi yüngül təmir etməklə, bəzi küçələrə asfalt salmaqla Şuşada əsaslı yenidənqurma işlərinin aparılmasına dair görüntü yaratmağa çalışıb bu illər ərzində. Ancaq bütün şəhər xarabalıq içindədir.

"Azərbaycan mirvarisi Şuşa" kitabında erməni vandallığı nəticəsində dağıdılmış evlərin Şuşanın işğalından əvvəl çəkilmiş şəkillərini işğaldan sonra təsadüfən eyni rakursdan çəkilmiş şəkillərlə müqayisəli şəkildə yerləşdirməklə maddi və mənəvi dəyərlərimizə qarşı edilən haqsız terror nəticəsində məhv edilmiş abidələrimizin görüntülərini çatdırmağa çalışmışdıq. Şuşada olarkən onun da şahidi olursan ki, kitabda müqayisəli şəkildə yerləşdirdiyimiz şəkillərdə işğaldan sonrakı durumu əks olunan tikililərin vəziyyəti daha acınacaqlıdır. Həmin şəkillər təxminən 2005-2010-cu illərdə çəkilmişdir. Artıq o xarabalıqlardan da əsər-əlamət qalmamışdır. Erməni işğalçıları memarlıq abidəsi kimi qeydiyyata alınmış evləri, sarayları söküb, daşlarından tikinti materialı kimi istifadə etmişlər. Tam sökülməmiş evlərin isə qapı və pəncərələrinin kənar daşları sökülüb aparılmışdır. Bunun səbəbi odur ki, evlərin divarları yalnız bir tərəfi yonulmuş but daşlardan hörülürdüsə, qapı və pəncərələrin kənar daşları xüsusi formaya salınmaq üçün yonulurdu. Belə hazır yonulmuş daşların memarlıq baxımından çox dəyərli olmasına baxmayaraq, bu erməni işğalçıları üçün adi, onları qane edən formaya salınmış tikinti materialından başqa bir şey deyildi. Ona görə də haşiyələr vəhşicəsinə sökülüb aparılmışdır. Memarlıq üslubu ilə Şuşanın Azərbaycana məxsus olmasını təsdiq edən digər bina və abidələrin dağıdılmasının ucuz başa gəlməsi üçün isə erməni işğalçıları həmin tikililərin sadəcə damını uçuraraq, gerisini zaman buraxmışlar. Və bu 28 il ərzində olan baxımsızlıq öz işini görüb. Bu illər ərzində yağış sularının damı olmayan evlərin bünövrəsinə tökülməsi nəticəsində divarlar tədricən uçub dağılıb.



Kənar daşları ermənilər tərəfindən sökülmüş pəncərələr

Rəşadətli ordumuz şəhəri işğaldan azad edərkən Azərbaycanın memarlıq incisi olan Şuşanı dağıntılardan xilas etmək məqsədi ilə ağır artilleriyadan istifadə etməmişdir. Elə bu səbəbdən də böyük qəhrəmanlıq göstərən əsgərlərimiz düşmənlə yaxın məsafədə yüngül silahlardan, hətta soyuq silahlardan istifadə etməklə döyüşmüş, düşməni ağır itkilərə məruz qoyaraq şəhəri tərk etməyə məcbur etmişdir. Sonradan internet üzərindən paylaşılan videogörüntülərdə də müşahidə etdik ki, Şuşada erməni terrorçularının saysız - hesabsız cəsədləri qalıbdır. Bu hal şəhərdə şiddətli döyüşlərin olduğunu bir daha göstərir. Nəticədə igid əsgərlərimiz şəhəri dağıntılara məruz qoymadan, eyni zamanda düşmənə ağır və sarsıdıcı zərbə vurmaqla azad etmişdir. Məğlub olan və şəhəri tərk etmək məcburiyyətində qalan düşmən isə həmişəki kimi öz məkrli niyyətinə, xain xislətinə sadiq qalaraq şəhəri kənardan güclü artilleriya atəşinə tutmuşdur. Demək olar ki, ağır artilleriyanın bütün növlərindən, hətta “İsgəndər” ballistik raketlərindən də istifadə etmişdir mənfur düşmən Şuşanı atəşə məruz qoyarkən. Bu faktları da təsdiq edən, elə ermənilərin özləri tərəfindən paylaşılan videogörüntülər internet resurslarında yayılmışdır. Nəticədə onsuz da yaralı olan şəhər daha çox dağıntılara məruz qaldı. Şəhərin tarixi məhəllələrində möcüzə nəticəsində salamat qalmış bir neçə memarlıq incisi də dağıdıldı.

Bütün bu xarabalıqların şahidi olandan sonra Şuşada işğaldan əvvəl çəkilmiş bütün şəkilləri toplayıb, həmin şəkillərdə əks olunan tikililərin Şuşa işğaldan azad olunandan sonrakı durumunu əks etdirən fotolarla müqayisəli şəkildə yerləşdirməklə bir albom ərsəyə gətirmək qərarına gəldim. Ümid edirəm bu materiallar da erməni vandallığının ağır nəticələrini gələcək nəsillərin diqqətinə çatdırılması işinə bir töhfə olacaq.





Mamayı, Xoca Mircanlı, Ağa Dədəli və Dəmirçilər məhəllələrinin "Qarabağ" mehmanxanasından görünüşü. Bu məhəllələrdəki evlər XVIII və XIX əsrlərin memarlıq abidələridir.






Mamayı məhəlləsi. Yaşayış evi. XIX əsr memarlıq abidəsi.





Mamayı məhəlləsi. XIX əsrdə inşa edilmiş yaşayış evi erməni işğalçıları tərəfindən tam sökülmüşdür.
Sağ tərəfdə görünən XIX əsr memarlıq abidəsi olan məhəllə bulağıdır.





Mamayı məhəlləsi. Yaşayış evləri. XIX əsr memarlıq abidələridir.
İşğaldan əvvəl çəkilmiş şəkildə aşağı tərəfdə görünən evlər işğalçılar tərəfindən tam sökülmüşdür. Xarabalıqları belə qalmamışdır.





Mamayı məhəlləsi. Yaşayış evi. XIX əsr memarlıq abidəsi idi. İşğaldan sonra çəkilmiş şəkil internet resurslarından götürülüb və təxminən ötən əsrin 90-cı illərinin sonlarını əhatə edir. Sonradan bu ev ermənilər tərəfindən tam sökülmüşdür. Hazırda xarabalıqları belə qalmamışdır.





Mamayı məhəlləsi. Yaşayış evləri. XIX əsr memarlıq abidələri idi. Şəkillərdən də göründüyü kimi, işğaldan sonra küçənin sağ və sol tərəfində olmuş evlər erməni işğalçıları tərəfindən tam sökülmüşdür.





Mamayı məhəlləsi. İşğaldan əvvəl çəkilmiş şəkildəki XIX əsr memarlıq abidəsi olmuş gözəl yaşayış binası işğaldan sonra erməni işğalçıları tərəfindən sökülərək, yerində birmərtəbəli evlər tikilib.





Mamayı məhəlləsi. İşğaldan əvvəl çəkilmiş şəkildəki evlərin əksəriyyəti XIX əsr memarlıq abidələri idi. İşğaldan sonra bu evlərin hamısı erməni qəsbkarları tərəfindən dağıdılmışdır. Evlərin xarabalıqları belə qalmamışdır.






Saatlı məhəlləsi. Yaşayış evləri. XIX əsr memarlıq abidələridi idi.
İşğaldan sonra evlər ermənilər tərəfindən tam sökülmüşdür.
Sağ tərəfdə görünən “Qarabağ” mehmanxanasıdır.





Saatlı məscidinin interyeri. Məscid ölkə əhəmiyyətli memarlıq abidəsidir. İşğaldan sonra məscidin daxili divarlarını və tavanını bəzəyən nəfis əl işləri, naxışlar və xəttat tərəfindən yazılmış Quran ayələri erməni işğalçıları tərəfindən məhv edilmişdir.





Saatlı məscidinin tavanı





Mamayı məhəlləsinin “Qarabağ” mehmanxanasından görünüşü.
İşğaldan sonra bu küçədə yerləşən və XIX əsr memarlıq abidələri olan evlərin əksəriyyəti erməni işğalçıları tərəfindən sökülmüşdür.





Xoca Mircanlı məhəlləsi. Yaşayış evi. XVIII əsr memarlıq abidəsi idi.
İşğal zamanı bu ev və ətrafda yerləşən, XVIII və XIX əsrlərin memarlıq abidələri olan möhtəşəm yaşayış evləri erməni işğalçıları tərəfindən yerlə yeksan edilmişdir.





Xoca Mircanlı və Mamayı məhəllələrinin Yuxarı Gövhər Ağa məscidinin minarəsindən görünüşü. Bu məhəllələrdə olan və işğaldan sonra ermənilər tərəfindən məhv edilən evlər XVIII və XIX əsrlərin memarlıq abidələri idi.





Merdinli məhəlləsi. Şəkillər “Qarabağ” mehmanxanasından çəkilib.
Sağ tərəfdəki Aşağı Gövhər Ağa məscidinin minarələridir.
Məscid XIX əsr memarlıq abidəsidir.





Merdinli məhəlləsi. Yaşayış evi. XIX əsr memarlıq abidəsidir.





Merdinli məhəlləsi. Yaşayış evi. XIX əsr memarlıq abidəsidir.
Şəkil Sadıqcan küçəsindən çəkilib.





Merdinli və Hacı Yusifli məhəllələrinin “Qarabağ” mehmanxanasından görünüşü. Şəkillərdən də göründüyü kimi, arxa planda görünən, XVIII və XIX əsrlərin memarlıq abidələri olmuş yaşayış evləri erməni işğalçıları tərəfindən tam sökülmüşdür. Mərkəzdə görünən Aşağı Gövhər Ağa məscidinin minarələridir.





Merdinli məhəlləsi, Sadıqcan küçəsi. Yaşayış evi. XIX əsr memarlıq abidəsidir. İşğaldan əvvəl "Şuşa" qəzetinin mətbəəsi (1990-cı ildən "Şuşa" Poliqrafiya Müəssisəsi adlanırdı) bu binada yerləşib. İşğaldan əvvəlki durumu əks etdirən görüntü "Uzun ömrün akkordları" filmindən götürülüb.





Merdinli məhəlləsi, Sadıqcan küçəsi. Yaşayış evi. XIX əsr memarlıq abidəsidir. İşğaldan əvvəl "Şuşa" qəzetinin mətbəəsi (1990-cı ildən "Şuşa" Poliqrafiya Müəssisəsi adlanırdı) bu binada yerləşib. İşğaldan əvvəlki durumu əks etdirən görüntü "Uzun ömrün akkordları" filmindən götürülüb.





Merdinli məhəlləsi, Sadıqcan küçəsi. Yaşayış evləri. XIX əsr memarlıq abidəsi idi. Şuşa şəhəri işğal edilənə qədər bu əzəmətli binalarda “Şuşa” qəzetinin mətbəəsi və Şuşa Musiqi məktəbi fəaliyyət göstərib. İşğaldan sonra mətbəənin yerləşdiyi binanın böyük hissəsi, Musiqi məktəbinin yerləşdiyi bina isə tam olaraq ermənilər tərəfindən sökülmüşdür.





Merdinli məhəlləsi, Sadıqcan küçəsi. İşğaldan sonra məhəllənin bu hissəsindəki XIX əsr memarlıq abidəsi olmuş yaşayış evləri ermənilər tərəfindən tamamilə dağıdılmışdır.






Merdinli məhəlləsi, Sadıqcan küçəsi. Yaşayış evi. XIX əsr memarlıq abidəsidir.





Merdinli məhəlləsi, Sadıqcan küçəsi. Hacı Məmmədin evi.
XIX əsr memarlıq abidəsidir. İşğaldan əvvəl bu binada SSRİ Aqrar Sənaye Bankının Şuşa filialı yerləşirdi.





Merdinli məhəlləsi, Sadıqcan küçəsi. Yaşayış evləri. XIX əsr memarlıq abidələridir.





Merdinli məhəlləsi, Sadıqcan küçəsi. Sağ tərəfdəki "Şirin su" hamamıdır.
XIX əsr memarlıq abidəsidir.





Merdinli məhəlləsi, Sadıqcan küçəsi. Soldakı ev görkəmli Azərbaycan tarzəni, müasir Azərbaycan tarının atası Mirzə Sadığa (Sadıqcan) məxsus olub. XIX əsr memarlıq abidəsidir.





Merdinli məhəlləsi, Sadıqcan küçəsi. Sağdakı ev görkəmli Azərbaycan tarzəni, müasir Azərbaycan tarının atası Mirzə Sadığa (Sadıqcan) məxsus olub. XIX əsr memarlıq abidəsidir.





Köçərli məhəlləsi, 20 Yanvar küçəsi. Yaşayış evi. XIX əsr memarlıq abidəsi idi. Bir çox mənbələrə əsasən bu ev Əhməd bəy Ağaoğlunun ana tərəfdən babasına məxsus olub. İşğala qədər bu binada Şuşa Rayon Sanitar Epidimioloji Stansiyası fəaliyyət göstərib. Şuşa şəhəri işğal altında olan müddətdə ev erməni qəsbkarları tərəfindən bütövlükdə sökülmüş və yerində birmərtəbəli ticarət obyekti tikilmişdir.





20 Yanvar küçəsi





Köçərli məhəlləsi. Cəfərqulu ağa Cavanşirin evi. XIX əsr memarlıq abidəsidir.





Cəfərqulu ağa Cavanşirin evinin başqa istiqamətdən görünüşü





Köçərli məhəlləsi. Firudin bəy Köçərlinin evi. XIX əsr memarlıq abidəsidir.





Köçərli məhəlləsi. Firudin bəy Köçərlinin evinin qarşısında,
bir qədər aşağıda yerləşən pilləkənlər.





Köçərli məhəlləsi. Bəhmən Mirzə Qacarın saray kompleksinə aid olan evlərdən biri. XIX əsr memarlıq abidəsidir. Bu ev və kompleksə aid olan digər binalar işğala qədər Şuşa İstirahət evinin balansında olmuşdur.





Köçərli məhəlləsi. Bəhmən Mirzə Qacarın saray kompleksinə aid olan digər ev.
XIX əsr memarlıq abidəsi idi.
İşğaldan sonra bu ev də ermənilər tərəfindən tamamilə sökülmüşdür.





Köçərli məhəlləsi. Bəhmən Mirzə Qacarın saray kompleksinə aid olan daha bir ev. XIX əsr memarlıq abidəsi idi. Ötən əsrin 60-70-ci illərində bu evə əlavə tikililər artırılmışdı. Bu bina da erməni işğalçıları tərəfindən sökülmüşdür.





Köçərli məhəlləsinin məscidi və məscidin bulağı. XIX əsr memarlıq abidəsidir. Bəhmən Mirzə Qacarın vəsaiti hesabına inşa edilib və saray kompleksinin ərazisinə daxil olub. İşğal zamanı erməni qəsbkarları məscidi sökmüşlər. Bulaq da möhkəm zədələnmişdir.





Köçərli məhəlləsi. Bəhmən Mirzə Qacarın malikanəsinin ərazisində yerləşən bulaq. XIX əsr memarlıq abidəsidir.





Köçərli məhəlləsi. Yaşayış evi. XIX əsr memarlıq abidəsidir.





Köçərli məhəlləsi. Yaşayış evi. XIX əsr memarlıq abidəsidir.





Köçərli məhəlləsi, 20 Yanvar küçəsi. Tikinti materialları mağazası.





Hacı Yusifli məhəlləsi. Yaşayış evi. XIX əsr memarlıq abidəsidir.





Hacı Yusifli məhəlləsi, Kərbəlayi Səfixan və Qasım bəy Zakir küçələrinin kəsişməsi.
XVIII əsrdə salınmış məhəllə işğalçılar tərəfindən bütövlükdə
xarabazarlığa çevrilmişdir.





Hacı Yusifli məhəlləsində qədim küçə. XVIII əsr memarlıq abidəsidir.
İşğaldan əvvəlki şəkil "Şuşa" televiziya filmindən götürülüb.



Hacı Yusifli məhəlləsində qədim küçə. XVIII əsr memarlıq abidəsidir.





Hacı Yusifli məhəlləsinin məscidi və bulağı. XVIII əsr memarlıq abidəsidir. İşğaldan sonra məscidin binasının giriş hissəsi işğalçılar tərəfindən sökülüb yenidən tikilməklə, qapı ləğv edilmiş və yerində pəncərə qoyulmuşdur. Binadan yaşayış evi kimi istifadə olunmuşdur. Binanın üzərindəki daş kitabələr məhv edilmişdir.





Hacı Yusifli məhəlləsinin məscidi, bulağı və yaşayış evi. XVIII əsr memarlıq abidəsidir.



Hacı Yusifli məhəlləsi. Yaşayış evləri. XVIII əsr memarlıq abidəsi idi.








Hacı Yusifli məhəlləsi. Yaşayış evləri. XVIII əsr memarlıq abidəsidir.





Hacı Yusifli məhəlləsi. Yaşayış evləri. XVIII əsr memarlıq abidəsidir.





Hacı Yusifli məhəlləsi. Yaşayış evləri. XVIII əsr memarlıq abidəsi idi.





Hacı Yusifli məhəlləsi. Yaşayış evi. XVIII əsr memarlıq abidəsi idi.





Aşağı Gövhər Ağa məscidinin mədrəsə binasının birinci mərtəbəsi və girişi.
Ölkə əhəmiyyətli memarlıq abidəsidir. İşğaldan əvvəlki şəkil
"Şuşa" televiziya filmindən götürülüb.





Aşağı Gövhər Ağa məscidinin mədrəsə binası və məscidin həyətinə giriş. Sol tərəfdəki tağlı darvaza işğalçılar tərəfindən sökülərək, daşları dağıdılmışdır. Məscid ölkə əhəmiyyətli memarlıq abidəsidir. İşğaldan əvvəlki durumu əks etdirən görüntü “Uzun ömrün akkordları” filmindən götürülüb.






Aşağı Gövhər Ağa məscidinin Mir Həsən Vəzirov küçəsindən (məscidin arxa tərəfi) görünüşü. İşğalçılar tərəfindən tamamilə dağıdılmış soldakı evdə sovetlər dövründə "Pionerlər evi" fəaliyyət göstərib. Ətrafdakı tikililər XVIII və XIX əsrlərin memarlıq abidələri idi. İşğaldan əvvəlki durumu əks etdirən görüntü "Uzun ömrün akkordları" filmindən götürülüb.





Aşağı Gövhər Ağa məscidinin arxa tərəfində yerləşən qədim küçə.
Bu küçə Gövhər Ağanın adını daşıyır. XIX əsr memarlıq abidəsidir.





Aşağı Gövhər Ağa məscidinin məhəllə bulağının qarşısından görünüşü. Bütün şəhərdə olduğu kimi bu məhəllədə də evlərin dam örtükləri və pəncərələri erməni işğalçıları tərəfindən sökülmüşdür.





Cahangir xan Nuribəyovun evi. (Şuşa rayon Polis Şöbəsinin inzibati binası). Sadıqcan küçəsi. XIX əsr memarlıq abidəsidir.





Çöl qala məhəlləsində qədim küçə. XVIII əsr memarlıq abidəsidir.
İşğaldan əvvəlki durumu əks etdirən görüntü "Şuşa" televiziya filmindən götürülüb.





Çöl qala məhəlləsində qədim küçə. XVIII əsr memarlıq abidəsidir.
İşğaldan əvvəlki durumu əks etdirən görüntü "Şuşa" televiziya filmindən götürülüb.





Çöl qala məhəlləsi. Yaşayış evləri. XVIII əsr memarlıq abidəsi idi.
İşğaldan sonra ermənilər tərəfindən tam sökülmüşdür.
Hətta yola döşənmiş daşları belə çıxarıb aparımışlar.





Çöl qala məhəlləsinin bulağı və məscidi. XVIII əsr memarlıq abidəsidir.
İşğaldan əvvəlki durumu əks etdirən şəkli rəssam Elturan Avalov çəkmişdir.





Görkəmli Azərbaycan şairi, rəssam və xeyriyyəçi Xan qızı Xurşidbanu Natəvanın saray kompleksinə aid evlərdən biri. Ölkə əhəmiyyətli memarlıq abidəsidir.





Xan qızı Natəvanın evinin Üzeyir Hacıbəyli küçəsindən görünüşü






Xan qızı Xurşidbanu Natəvanın evinin girişindəki lövhə. İşğaldan sonra tarixi itirmək üçün daş lövhədəki yazı işğalçılar tərəfindən məhv edilmişdir.





Xan qızı Natəvanın saray kompleksinə aid olan daha bir ev.
XVIII əsr memarlıq abidəsidir.





Natəvanın malikanəsinin yerləşdiyi ərazinin qərbdən görünüşü





Xan qızı Natəvanın vəsaiti hesabına 1873-cü ildə tikilmiş və onun adını daşıyan bulaq. Bulağın suyu ətraf dağlardan gil borular vasitəsilə çəkilmişdir. XIX əsrin memarlıq abidəsidir. Birinci şəkil ötən əsrin əvvəllərində çəkilib. İşğal zamanı bulağın üzərində olan daşdan hazırlanmış dekor elementləri və su kranları işğalçılar tərəfindən sökülmüş, bulağa gələn su kəsilmişdi. Şuşa şəhəri işğaldan azad ediləndən sonra bulağa suyun verilməsi təmin edilmişdir. Bulağın yenidən bərpası və təmir edilməsi planlaşdırılır.






Xurşidbanu Natəvanın barelyefi və ona həsr edilmiş şeir. Bu mənzərə Natəvanın inşa etdirdiyi və onun adını daşıyan bulağın, bulaqla üzbə-üz dayananda sağ tərəfində yaradılmışdı. İşğaldan sonra ermənilər tərəfindən məhv edilmişdir.






Natəvanın şeiri və Natəvana həsr edilmiş şeirlərdən ibarət kompozisiya. Kompozisiyada bulağın 1873-cü ildə Xan qızı Natəvanın vəsaiti hesabına inşa edilməsinə dair məlumat da var idi. Kompozisiya bulağın sol tərəfində divarda yaradılmışdı. İşğaldan sonra bu kompozisiya da ermənilər tərəfindən məhv edilmişdir.







Dahi bəstəkar Üzeyir Hacıbəylinin ev muzeyi. XVIII əsr memarlıq abidəsidir.





Üzeyir bəyin evinin başqa istiqamətdən görünüşü











Üzeyir Hacıbəylinin evinin üzərindəki lövhə. Lövhədə Üzeyir Hacıbəyli (1885-1948) və qardaşı bəstəkar Zülfüqar Hacıbəylinin (1884-1950) bu evdə dünyaya gəlmələri və yaşamaları haqqında məlumat yazılmışdı. Lövhənin qırıqlarını əks etdirən şəkil Şuşa şəhəri işğal altında olan zaman çəkilib və internet resurslarından götürülüb. Şuşa işğaldan azad ediləndən sonra bu qırıqları tapmaq mümkün olmadı.





Üzeyir bəyin evinin giriş qapısı. Qapının üzərindəki daş lövhədəki yazılar işğaıçılar tərəfindən silinmişdir. Evləri dağıtmaqla kifayətlənməyən mənfur düşmən, ərazidə olan ağacları da kəsmişdi.





Hamamqabağı məhəlləsi. Yaşayış evi. XIX əsr memarlıq abidəsidir.





Hamamqabağı məhəlləsi. Yaşayış evləri. XIX əsr memarlıq abidəsidir.





Lətif İmanov küçəsində qədim qapı.
Qapı üzərindəki daş kitabələr erməni işğalçıları tərəfindən məhv edilmişdir.





Zöhrabbəyovların malikanəsi. XIX əsr memarlıq abidəsidir.





Zöhrabbəyovların malikanəsinin başqa istiqamətdən görünüşü





Qaraböyük xanım sarayını (qəsrini) əhatə edən divarlar (iç qala). Şəhər sakinləri bu qəsri Qaraböyük xanım bürcü adlandırırlar. Şuşa qalasının daxilində yerləşir. XVIII əsr ölkə əhəmiyyətli memarlıq abidəsidir. İşğaldan sonra saray və onu əhatə edən möhtəşəm iç qalanın bürclərindən biri işğalçılar tərəfindən dağıdılmışdır.





Şuşa qalasının fraqmenti. Ərazi uzun illər ərzində baxımsız qaldığı üçün yabanı bitkilər və kollarla örtülmüşdür. Bu səbəbdən demək olar ki, qala divarının bu möhtəşəm fraqmenti kənardan görünmür. Şuşa qalası XVIII əsr ölkə əhəmiyyətli memarlıq abidəsidir.





Hamamqabağı məhəlləsi. Yaşayış evləri. XIX əsr memarlıq abidəsidir.
Şuşa şəhəri işğal edilənə qədər bu binalarda Texniki Peşə Məktəbi yerləşib.





Yusif Vəzir Çəmənzəminli küçəsi. Yaşayış evləri. XVIII əsr memarlıq abidələr idi.
Bu evlər də işğalçılar tərəfindən tamamilə dağıdılmışdır.





Yusif Vəzir Çəmənzəminli küçəsi. Yaşayış evi. XVIII əsr memarlıq abidəsi idi. İşğaldan sonra ermənilər tərəfindən tamamilə dağıdılmışdır.





Yuxarı Gövhər Ağa məscidinin ərazisində olan Şəhidlər xiyabanı. Şəkillər Şuşa şəhəri işğal altında olan zaman və işğaldan azad ediləndən sonra çəkilib. Burada 1905 və 1918-ci illərdə silahlı erməni quldur dəstələri tərəfindən Şuşa şəhərində dinc azərbaycanlı sakinlərə qarşı basqın zamanı əhalinin müdafiəsinə qalxmış və şəhid olmuş azərbaycanlılar dəfn edilib. İşğaldan sonra erməni qəsbkarları xiyabanda olan qəbirlərin bir çoxunu dağıdıblar. Şübhə yoxdur ki, işğal altında olan zamanı əks etdirən şəkili çəkən şəhidlərimizin qəbir daşları üstündə "oynayan" uşaqlardan biri deyil. Bu düşünülmüş addımdır. Öz uşaqlarını azərbaycanlılara qarşı nifrət və düşmənçilik hissi ilə böyüdən mənfur düşmən qəbirlərlə, dünyasını dəyişmiş insanların ruhları ilə də düşmənçilik edir.





Təzə məhəllə. Mehmandarovların böyük evi. XIX əsr memarlıq abidəsi idi.
İşğaldan sonra erməni qəsbkarları evi tam dağıdıblar.
Evin xarabalıqları belə qalmamışdır.





Təzə məhəllə məscidi. Bu məscid Mehmandarovların məscidi kimi də tanınır.
Təzə məhəllədə, Mehmandarovların mülkünün ərazisində yerləşir.
Mehmandarovların vəsaiti hesabına inşa edilmişdir. XIX əsr memarlıq abidəsidir.





Təzə məhəllə məscidinin interyeri. XIX əsrin memarlıq abidəsidir





Təzə məhəllə. Yaşayış evi. XIX əsr memarlıq abidəsidir.
İşğaldan sonra evin ikinci mərtəbəsi işğalçılar tərəfindən sökülmüşdür.





Təzə məhəllə. Hacı Dadaşın evi. XIX əsr memarlıq abidəsidir.





Təzə məhəllə və Ağa Dədəli məhəlləsində yerləşən yaşayış evləri.
XVIII və XIX əsrlərin memarlıq abidələri idi.
İşğaldan sonra bu ərazidə olan evlərin demək olar ki, hamısı işğalçılar tərəfindən yerlə yeksan edilmişdir.





Seyidli məhəlləsinin yuxarı hissəsindən,
Cıdır düzünə gedən yoldan şəhərin görünüşü





Seyidli məhəlləsindən bir görünüş. Şəkil Cıdır düzünə gedən yoldan çəkilib. Bu hissədə olan evlər XVIII əsrdə tikilmişdir.





Şəhərin mərkəzi və aşağı hissəsi. Şəkillər M.P.Vaqifin məqbərəsinin qarşısından çəkilmişdir.





Şəhərin mərkəzi hissəsinin Cıdır düzündən görünüşü.
Sağ tərəfdəki Aşağı Gövhər Ağa məscidinin minarələridir.
İşğaldan sonra çoxmənzilli yaşayış evlərinin də qapı və pəncərələri
ermәni işğalçıları tərəfindən sökülmüşdür.



Seyidli məhəlləsi. Sağ tərəfdə məhəllə məscidinin binasıdır.
XVIII əsrin memarlıq abidəsidir.



Seyidli məhəlləsi. Sol tərəfdə məhəllə məscidinin binasıdır. Arxa planda görünən evlər Şuşa işğal altında olan zaman erməni qəsbkarları tərəfindən sökülmüşdür. Məhəllədəki tikililər XVIII əsrin memarlıq abidəsidir.





Yaşayış evləri. Seyidli məhəlləsi. XVIII əsr memarlıq abidələridir.
Şəkil Mir Həsən Vəzirov adına Kənd Təsərrüfatı Texnikumunun qarşısından çəkilib.
İşğaldan əvvəl çəkilmiş şəkildə, sağ tərəfdə Mir Həsən Vəzirovun büstü görünür.
İşğaldan sonra büst işğalçılar tərəfindən dağıdılmışdır.





Qarabağ taciri Hacı Qulunun sarayı. XIX əsr memarlıq abidəsidir.
Azərbaycan memarlıq üslubunun ən gözəl ənənələri nəzərə alınmaqla inşa edilən bu saray 46 otaq və 2 böyük zaldan ibarət olmuşdur.





Hacı Qulunun sarayının şərqdən görünüşü





Hacı Qulunun sarayının içəridən, giriş qapısının arxasından görünüşü





Hacı Qulunun sarayının sarayın bağçasından görünüşü





Çuxur məhəllə meydanı. Ön planda, solda məhəllə bulağı,
sağ tərəfdə Saqqaxana ibadətgahıdır.
XVIII əsrin memarlıq abidəsidir. İşğaldan sonra bulağa gələn su kəsilmiş, işğalçılar tərəfindən evlərin dam örtüyü sökülmüş, ibadətgah və işğaldan əvvəl çəkilmiş şəkildə arxa planda görünən evlər də tamamilə sökülmüşdür.



Qarabağda yaşayan insanların müqəddəs saydıqları Saqqaxana ocağı.
Çuxur məhəllə. XVIII əsr.





Çuxur məhəllədə qədim küçə. XVIII əsr memarlıq abidəsidir. Bu məhəllədə də evlərin dam örtükləri və pəncərələri erməni işğalçıları tərəfindən sökülmüşdür. Şəkillərin hər ikisi Şuşa işğal altında olan zaman bir neçə il fərqlə çəkilib. Damın və pəncərələrin sökülməsi bu illər ərzində öz mənfi təsirini göstərmişdir. Hazırda bu evin yalnız xarabalıqları qalıb. Şəkillər internet resurslarından götürülüb.





Yuxarı Gövhər Ağa məscidi və Meydan bulağı. İşğal zamanı erməni qəsbkarları məscidi “fars məscidi” adı altında “bərpa” etmiş, bulağı isə ümumiyyətlə dağıtmışlar.



Mərkəzi Meydanın digər istiqamətdən görünüşü. Meydan bulağı və məscidin arxasında yerləşən evlər işğalçılar tərəfindən sökülmüşdür.





Yuxarı Gövhər Ağa məscidinin qarşısından Meydanın görünüşü. Məscidin qarşısındakı kiçik fəvvarə, Meydan bulağı və arxa planda görünən Mədəniyyət evinin binası işğalçılar tərəfindən tam sökülmüşdür.





Səfərov qardaşlarının karvansarayı. XIX əsr memarlıq abidəsidir. İşğaldan sonra bu nəfis memarlığı olan 3 mərtəbəli bina işğalçılar tərəfindən dağıdılmışdır. Hazırda binanın yalnız birinci mərtəbəsinin xarabalıqları qalıb.





Səfərov qardaşlarının karvansarayının başqa istiqamətdən görünüşü





Səfərov qardaşlarının (solda) və Məşədi Şükür Mirsiyab oğlunun karvansarayları. XIX əsr memarlıq abidələridir. İşğaldan sonra Səfərov qardaşlarının karvansarayının binası işğalçılar tərəfindən dağıdılıb, Məşədi Şükür Mirsiyab oğlunun karvansarayının məscidi (sağda iki mərtəbəli) və binanın özü tarixi görkəminə və milli üslubuna xələl gətirən konstruktiv dəyişikliyə məruz qalıb.





Həmin binaların yaxından görünüşü






Məşədi Şükür Mirsiyab oğlunun karvansarayının interyeri.
XIX əsr memarlıq abidəsidir. Şuşa şəhəri işğal edilənə qədər bu binada kolxoz bazarı fəaliyyət göstərib.





Molla Pənah Vaqif küçəsi. Ötən əsrin 70-ci illərində bu küçədə Şair Molla Pənah Vaqifin büstü qoyulmuş, büstün ətrafında abidə kompleksi yaradılmışdı (XVIII əsrdə büstün qoyulduğu yerdə M.P.Vaqifin evi olub). Abidə kompleksində Səməd Vurğunun yazdığı “Vaqif” dramına həsr edilmiş barelyef də yaradılmışdı. Barelyefdə Şuşa qalası təsvir edilmiş, Molla Pənah Vaqifin şeirlərindən misralar yazılmışdı. İşğal zamanı abidə kompleksi və şairin büstü işğalçılar tərəfindən dağıdılmışdır. Şuşa şəhəri işğaldan azad ediləndən sonra şairin büstü qısa müddət ərzində hazırlanaraq, yenidən öz yerində qoyulmuş, küçədə isə abadlıq və bərpa işləri görülmüşdür.





Musiqi məktəbinin binası. XIX əsr memarlıq abidəsi idi. Ötən əsrin 70-ci illərində binanın sağ tərəfində çoxmənzilli yaşayış evi inşa edilmişdir. İşğaldan sonra Musiqi məktəbinin binasının dam örtüyü və pəncərələri erməni qəsbkarları tərəfindən sökülmüş və uzun illər baxımsız qalmışdır. Təxminən 2015-ci ildə musiqi məktəbinin binası tam sökülmüşdür.





M.Ə.Rəsulzadə küçəsi. İşğaldan əvvəlki şəkil “Şuşa – 1978” televiziya filmindən götürülmüşdür.





Mir Həsən Vəzirov küçəsi. Yaşayış evi. XIX əsr memarlıq abidəsidir.





Mir Həsən Vəzirov küçəsi. Yaşayış evi.  XIX əsr memarlıq abidəsi idi.





Mir Həsən Vəzirov küçəsi. Yaşayış evi. XIX əsr memarlıq abidəsi idi.
İşğaldan sonra erməni işğalçıları tərəfindən tam dağıdılmışdır.





Realnı məktəbin binası. 1901-1908-ci illərdə inşa edilib.





Azərbaycanlı şair, rəssam, astronom, ədəbiyyatşünas, nəqqaş, tarixçi, xəttat və musiqişünas alim Mir Möhsün Nəvvabın məzarı üstündəki abidə. Cıdır Düzü yaxınlığındakı Mir Fəseh qəbiristanlığında yerləşir. Abidənin tikintisi YUNESKO tərəfindən maliyyələşdirilmişdir.





Bazarbaşı. Dahi bəstəkar Üzeyir Hacıbəyli və Azərbaycan opera müğənnisi Bülbülün (Murtuza Məşədi Rza oğlu Məmmədov) işğaldan əvvəl Mədəniyyət evinin qarşısındakı büstləri. Xan qızı Xurşid Banu Natəvanın büstü binanın arxa tərəfində, şairənin saray kompleksinin ərazisində, el arasında “Natəvanın bağı” deyilən yerdə qoyulmuşdur. Şuşa şəhərinin işğalından sonra erməni qəsbkarları tərəfindən güllələnmiş və təhqir edilmiş büstlər Gürcüstan Respublikasının ərazisində metal qırıntıları satışı məntəqəsindən satın alınaraq Azərbaycana gətirilmiş və Şuşa şəhəri Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad edilənə qədər Bakıda, Dövlət İncəsənət muzeyinin ərazisində saxlanılmışdır. İşğaldan sonra Mədəniyyət evinin binası ermənilər tərəfindən tam sökülmüşdür. Şuşa şəhəri işğaldan azad ediləndən sonra hər üç büst Şuşaya gətirilmiş, Üzeyir bəyin və Bülbülün büstləri əvvəlki yerinə, Natəvanın büstü isə irəli çəkilərək ortaya qoyulmuşdur.





Bazarbaşı. Şair Molla Pənah Vaqifin qurumuş ağac üzərində oyulmuş büstü. Arxa fonda görünən Xanlıq Muxtarın karvansayı (XIX əsrin memarlıq abidəsidir) və 2 saylı rus orta məktəbin binasıdır. Erməni işğalçıları məktəbin binasını yarıuçmuş vəziyyətə salmış, büst olan ağacı isə kəsmişlər. Ümumiyyətlə Şuşa işğaldan azad ediləndən sonra şəhərdə çoxlu sayda, həm meyvə, həm də digər qiymətli ağacların kəsildiyinin şahidi olduq. Çox güman bu ağaclardan adi yanacaq məqsədi ilə istifadə edilib.





İşğaldan əvvəl 20 Yanvar şəhidlərinə ucaldılmış abidə. Şuşa işğala məruz qalana qədər işlərin böyük hissəsi görülmüşdü. Demək olar ki, abidənin yalnız üzlük daşları ilə örtülməsi işləri qalmışdı.
İşğaldan sonra erməni terrorçuları bu abidəni də söküb dağıdıblar.





Ümumittifaq miqyaslı "Şuşa" Sanatoriyasının 2 saylı müalicə korpusunun binası və binanın qarşısında salınmış park





Pənahəli xan küçəsi. Poçtun binası.





Saatlı məhəlləsi, Bazarbaşı meydanı və Güllü bağ istirahət parkının “Qarabağ” mehmanxanasından görünüşü. İşğaldan sonra sol tərəfdə görünən Nəcəf bəy Vəzirov adına 2 saylı rus orta məktəbin binası ermənilər tərəfindən yarıuçmuş duruma salınmış, məktəbin qarşısındakı XIX əsr memarlıq abidəsi olmuş yaşayış evi ümumiyyətlə, sökülmüş, Saatlı məscidi dəyişikliyə məruz qalmış, məscidin minarəsinin eyvanı qumbaraatandan atılan mərminin partlaması nəticəsində dağıdılmış, Mədəniyyət evinin binası tam sökülmüş, Güllü bağda olan bütün skamyalar, işıq dirəkləri sökülüb aparılmış, ağacların əksəriyyəti kəsilmişdir. Şuşa şəhəri işğaldan azad edildəndən sonra mehmanxananın qarşısındakı parkda təmir və abadlıq işləri aparılmışdır.





Bazarbaşı meydanının “Qarabağ” mehmanxanasından görünüşü.
Mədəniyyət evinin binası erməni işğalçıları tərəfindən tam sökülmüşdür.





“Qarabağ” Mehmanxanasından şəhərin mərkəzi meydanının görünüşü





Nəcəf bəy Vəzirov adına 2 saylı rus orta məktəb. İşğal zamanı məktəbin üçüncü mərtəbəsi ermənilər tərəfindən sökülmüş, bina yarıuçmuş vəziyyətə düşmüşdür. Məktəbin qarşısından küçəyə enən pilləkənlər də sökülərək, daşaları oğurlanmışdır.




I Qarabağ müharibəsi zamanı Şuşanın şəhid olmuş müdafiəçiləri və terror qurbanı olmuş dinc sakinlərinin dəfn edildiyi Şəhidlər xiyabanı. Xiyaban Cıdır düzü yaxınlığında salınmışdır. Şuşa şəhəri işğal ediləndən sonra xiyaban erməni işğaıçıları tərəfindən dağıdılmış, ərazi texnika ilə düzlənmişdir.



Mirzə Həsən qəbiristanlığı. Şuşada dünyaya göz açmış və yaşayıb yaratmış bir çox dahi şəxslərin də uyuduğu Şuşanın əsas qəbiristanlığı. Şuşa şəhəri işğal ediləndən sonra qəbiristanlıqda olan əksər qəbirlər erməni işğalçıları tərəfindən dağıdılmış, baş daşları sökülərək tikinti materialı kimi istifadə edilmişdir. Qranit tərkibli baş və sinə daşları isə ümumiyyətlə oğurlanmışdır. Bir çox qəbirlərin baş tərəfi qazılaraq mərhumların qızıl dişlərinin sökülməsi üçün cəsədlərin kəllə sümükləri qəbirlərdən çıxarılmış və sonra da elə qəbirlərin yanında kənara atılmışdır. Şəkildəki qəbirdə şəhər sakini Cümşüd Səhliyalı oğlu Məmmədov (1906-1969) dəfn edilmişdir.

# Şuşa işğaldan azad ediləndən sonra

Şuşa işğaldan azad olunandan qısa müddət sonra Ali Baş Komandan İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Şuşaya səfər etdilər. Bu səfər 14 yanvar 2021-ci ildə baş tutdu. Bu səfərin məhz yanvarın 14-də gerçəkləşməsinin ayrı rəmzi mənası da var. Düz 39 il əvvəl, 14 yanvar 1982-ci ildə Şuşada Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə inşa edilmiş Molla Pənah Vaqifin məqbərəsinin açılışı olmuş həmin tədbirdə İlham Əliyev də iştirak etmişdi.

2021-ci ilin yanvar ayında baş tutmuş səfər zamanı təşkil olunmuş görüşdə Prezident İlham Əliyev iştirakçılara və media nümayəndələrinə demişdi: “Bu dəfə Müzəffər Azərbaycan Ordusunun, qalib Azərbaycan Ordusunun Ali Baş Komandanı kimi gəlmişəm. Düşmənin belini qıran Ordunun Ali Baş Komandanı kimi gəlmişəm və burada müqəddəs bayrağın altında, qəhrəman hərbçilərin önündə deyirəm ki, biz bu torpaqlarda əbədi yaşayacağıq!”

Səfər zamanı dahi bəstəkar Üzeyir Hacıbəyli, Xan qızı Xurşid Banu Natəvan və Görkəmli opera müğənnisi Bülbülün uzun illər ərzində köçkün həyatı yaşayan büstləri də Şuşaya qaytarılaraq öz yerlərinə qoyuldu.





Saatlı məscidinin qarşısı







15 mart 2021-ci ildə Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Şuşaya növbəti səfər etdilər. Bu səfər Novruz bayramına təsadüf edirdi. Cıdır düzündə böyük səməni quruldu, bayram tonqalı qalandı. Düz 28 il idi Şuşamızda bayram tonqalı qalanmırdı. Beləliklə Novruz bayramı ənənələri yenidən Şuşamıza qaytarıldı. Səfər zamanı Prezident Ilham Əliyev şəhərin memarlıq abidələrinin durumu ilə yaxından tanış oldu, onların bərpası üçün müvafiq tapşırıqlar verdi.







Məşədi Şükür Mirsiyab oğlunun karvansarayı



Molla Pənah Vaqivin məqbərəsi

7 may 2021-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı elan edildi.

12 may 2021-ci ildə Şuşamızda tarixi hələ ötən əsrin 70-ci illərinə gedib çıxan möhtəşəm “Xarıbülbül” festivalı da çox yüksək səviyyədə təşkil edildi. Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva da Şuşada, Cıdır düzündə təşkil olunan “Xarıbülbül” festivalına gəldilər. Bu tədbirdə sənətkarlarımızın ifasında səslənən Azərbaycanın milli dəyəri olan muğam Şuşadan, Cıdır düzündən bütün Qarabağa yayıldı. Vaxtı ilə ardıcıl olaraq hər il təşkil edilən bu tədbirlər üçün çox darıxmışdı Şuşamız. O vaxtlar olduğu kimi, bu dəfə də Şuşanın özünə aid olan bu mədəni tədbir yüksək səviyyədə təşkil olundu.


Xarıbülbül
MUSİQİ FESTİVALI
ŞUŞA, AZƏRBAYCAN 2021




Şuşa

Xarı Bülbül festivalından sonra, 15 iyun 2021-ci ildə qardaş Türkiyə Respublikasının Prezidenti ilə Azərbaycan Prezidenti Şuşamıza birgə səfər etdilər. Bu səfər zamanı iki dost və qardaş ölkə arasında - Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında böyük tarixi əhəmiyyəti olan müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi imzalandı. Şuşa Bəyannaməsinin imzalanma mərasisimi Bazarbaşında, Görkəmli şairə Xan qızı Xurşid Banu Natəvanın ölkə əhəmiyyətli memarlıq abidəsi olan və erməni terrorçuları tərəfindən dağıdılmış saray kompleksinin xarabalıqlarının qarşısında təşkil edildi. Bu da bir rəmzi məna daşıyırdı. Bütün dünyanın diqqətinin yönəldiyi məkanda erməni vandallığının nəticələrini açıq şəkildə görmək olurdu. Prezident İlham Əliyev bu saray kompleksi və şəhərdə möhkəm dağıntılara məruz qalmış digər memarlıq incilərimiz haqqında həm qardaş ölkənin Prezidentinə, həm də media nümayəndələrinə geniş məlumat verdi. Sonda qardaş ölkənin Prezidentinə "Zəfər" adlı Qarabağ atı hədiyyə edildi.

Onu da qeyd etmək yerinə düşər ki, Qarabağ atları hələ I Qarabağ müharibəsi zamanı min bir əziyyətlə Ağdamdakı at zavodundan təxliyyə edilmiş və sonradan bu nadir cinsin qorunub saxlanılması üçün bütün zəruri tədbirlər görülmüşdür. Atçılığın inkişafı üçün Azərbaycan Respublikasında atçılığın təşkilinin və idarə edilməsinin iqtisadi və hüquqi əsaslarını müəyyən edən, atçılıq subyektləri arasında münasibətləri tənzimləyən "Atçılıq haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Türkiyə Prezidentinin şərəfinə düzülmüş fəxri qarovul dəstəsinin qarşısında



Şuşa Bəyannaməsinin imzalanması



Xan qızı Natəvanın inşa etdirdiyi bulağın qarşısında



Cıdır düzü



Qardaş Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana bağışlanan "Zəfər" adlı Qarabağ atı

Şuşada növbəti mədəni tədbir "Vaqif poeziya günləri" 29-30 avqust 2021-ci ildə şair Molla Pənah Vaqifin artıq tam bərpa edilmiş məqbərəsinin qarşısında təşkil edildi. Erməni işğalı altında olarkən şəbəkələri oğurlanmış, üzlük daşları sökülmüş, şairin qəbri üstündəki sinə və baş daşları talanmış, büstü ayaqlar altına atılmış məqbərənin quru sütunları qalmışdı. Qısa müddət ərzində əvvəlki görkəmində bərpa edilən məqbərə gözəlliyi ilə göz oxşayır. Tədbirdə digər qonaqlarla yanaşı Şuşanın ziyalılarının da iştirakı təşkil edilmişdi. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva da tədbirdə iştirak edirdilər. Prezident İlham Əliyev məqbərənin ikinci açılışını etdi, nitq söylədi, şuşalılarla görüşdü. Bayram ab-havası hökm sürürdü Şuşada. Şuşa sakinlərinin Şuşa ilə görüşdən heyrətlənmələrini kənardan görməmək mümkün deyildi. Gözlərdə sevinclə yanaşı itirilmiş, Şuşada qalmış gənclik illərinin nisgili də hiss olunurdu.

Səfər çərçivəsində Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva görkəmli şair Molla Pənah Vaqifin Cıdır düzü yaxınlığındakı qəbri üstündə 1982-ci ildə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə ucaldılmış məqbərəsi ilə yanaşı Ağa Qəhrəman Mirsiyab oğlunun və Xanlıq Muxtarın karvansarayında təşkil edilmiş rəsm qalereyası və Qarabağın tarixinə dair foto sərgisi və 28 il Şuşadan didərgin düşmüş məşhur Şuşa-Qarabağ xalçalarının sərgisini ziyarət etdilər, Prezident İlham Əliyev dahi bəstəkar Üzeyir Hacıbəylinin vaxtı ilə erməni işğalçıları tərəfindən oğurlanmış heykəlinin yerində ucaldılmış yeni heykəlinin, görkəmli şair Molla Pənah Vaqifin erməni terrorçuları tərəfindən oğurlanmış büstünün yerində ucaldılmış yeni büstünün, görkəmli opera müğənnisi Bülbülün ev muzeyinin açılışını etdi, Üzeyir Hacıbəylinin ev muzeyinin və bir sıra digər tarixi memarlıq abidələrinin bərpası və yeni inşa ediləcək obyektlərin inşası ilə bağlı göstərişlər verdi, şəhərin baş planı ilə tanış oldu, baş plana və şəhərin ümumi memarlıq üslubuna uyğun olaraq şəhərin yuxarı hissəsində inşa ediləcək 3, 4 və 5 mərtəbəli çoxmənzilli yaşayış evlərinin təməlini qoydu. Məqsəd, əlbətdə ki, şəhəri əvvəlki görkəmində bərpa etmək və Şuşa sakinlərinin qısa müddətdə Şuşaya qayıtmalarını təmin etməkdir.



Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin iştirakı ilə Şuşada Molla Pənah Vaqifin məqbərəsinin təntənəli açılışı. 14 yanvar 1982-ci il

Doğrudan da qısa müddət ərzində Şuşaya çoxsaylı səfərlər edilməsi, mədəni tədbirlərin keçirilməsi, Şuşanın Azərbaycanın mədəniyyət paytaxtı elan olunması, qardaş ölkə ilə mühüm tarixi əhəmiyyəti olan Bəyannamənin Şuşada imzalanması, dahi şəxsiyyətlərin ev muzeylərinin, heykəllərin və digər mədəniyyət obyektlərin bərpa edilərək təhvil verilməsi bu şəhərin Azərbaycanımızın həyatında oynadığı mühüm roldan və hər bir azərbaycanlının bu şəhərə verdiyi yüksək dəyərdən xəbər verir.




Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin iştirakı ilə 1982-ci il yanvar ayının 14-də Şuşada Molla Pənah Vaqifin məqbərəsinin və Poeziya Evinin təntənəli açılışı onun milli ədəbiyyata, tarixə, mədəniyyətə böyük marağının təzahürü idi. Məhz bu səfər çərçivəsində Vaqif Poeziya Günlərinin keçirilməsi ilə bağlı göstəriş verən Heydər Əliyevin 29 iyul 1982-ci ildə yenidən Şuşaya gəlməsi onun Qarabağa olan xüsusi diqqətinin bariz nümunəsi idi. (30.08.2021-ci ildə Şuşada təşkil edilmiş Vaqif Poeziya Günlərinin gündəliyindən)





Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Molla Pənah Vaqifin qəbri üzərində ucaldılmış məqbərənin və Vaqif Poeziya Günləri ilə əlaqədar təşkil edilmiş tədbirin açılışı zamanı nitq söyləyərkən.






Şuşalılarla



Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva abadlaşdırılan Güllü bağda yüksək səviyyədə təmir edilərək yenidən istifadəyə verilən “Qarabağ” mehmanxanasının qarşısında



Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva “Qarabağ” mehmanxanasının açılışında



Şair Molla Pənah Vaqifin büstünün açılışı



Molla Pənah Vaqifin məqbərəsi (1982-ci və 2021-ci il)




Görkəmli opera müğənnisi Bülbülün ev muzeyinin açılışında





Dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin heykəlinin açılışı



Şuşa xalça muzeyində.
Uzun illər doğma vətənindən ayrı düşən məşhur Şuşa xalçaları yenidən Şuşada sərgilənir.




Şəhərin baş planı ilə tanışlıq




Yeni yaşayış massivinin və “Otel və Konfrans Mərkəzi”nin təməlinin qoyulması

18 sentyabr 2021-ci ildə Şuşada Milli Musiqi günü keçirildi. Azərbaycan Dövlət Simfonik Orkestri, Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestri, Azərbaycan Dövlət Xor Kapellası tanınmış sənətkarların müşayiəti ilə Şuşanın tarixi yerlərində konsert proqramları ilə çıxışlar etdilər. Konsert proqramına dahi bəstəkar Üzeyir Hacıbəylinin əsərləri daxil edilmişdi. Şuşa şəhəri işğal olunana qədər bu bayram Şuşada əsasən Cıdır düzündə və Üzeyir Hacıbəylinin Natəvanın bağında ucaldılmış heykəlinin qarşısında təşkil edilirdi. Şuşa şəhərinin işğalından sonra bu ənənə bir müddət unuduldu.

1995-ci ildə isə Heydər Əliyevin fərmanı ilə dahi bəstəkarın anadan olmasının 110 illik yubileyi ərəfəsində 18 sentyabrın Milli Musiqi günü kimi qeyd olunması qərara alındı.




Şuşa, Cıdır düzü, Mahnı bayramı ilə əlaqədar təşkil edilmiş tədbir.
“Sovet Azərbaycanı” jurnalının 1986-cı il tarixli buraxılışından.



Milli Musiqi günü ilə əlaqədar Üzeyir bəyin heykəlinin qarşısında təşkil edilmiş konsert proqramı. Şuşa. 18.09.2021-ci il

Bəzən xarici jurnalistlər belə bir təxribat xarakterli sualla müraciətlər edirlər: “Şuşaya ermənilər də iddialıdır, azərbaycanlılar da. Hansının bu şəhərə daha çox haqqı var?”, yaxud “Şuşa Azərbaycanın mədəniyyət paytaxtı elan edildi. Bu bir siyasi addımdır, yoxsa həqiqətən də Şuşa Azərbaycan mədəniyyətinin inkişafında əhəmiyyətli rol oynayıb?” Bu iki sualın bir cavabı var: Şuşa - eyni zamanda bu diyarın Azərbaycana, dünyaya bəxş etdiyi insanlardır. Şuşada azərbaycanlı ziyalılar, məşhur ədəbiyyatşünaslar, şairlər, görkəmli və dünya şöhrətli bəstəkarlar, xanəndələr, memarlar, istedadlı rəssamlar, həkimlər, müəllimlərdən ibarət böyük bir ordunun sayına bərabər insanlar dünyaya göz açıb, yaşayıb-yaratmışlar. Bu insanlar tək Şuşanın mədəniyyət mərkəzinə çevrilməsində deyil, həm də bütün Azərbaycan mədəniyyətinin tarixində böyük rol oynamışlar. Ermənilər isə, Qarabağa çox sonralar köçürüldükləri üçün bu siyahının heç bir faizi qədər Qarabağda doğulmuş tanınmış ermənilərin siyahısını təqdim edə bilməzlər. Bütün bunlar həmin jurnalistlərin məqslədli surətdə verdikləri suallarına qəti və tutarlı cavabıdır.

Yuxarıda qeyd etdiyimiz kimi, doğma Şuşamız işğaldan azad olunandan dərhal sonra burada Şuşaya aid mədəni tədbirlər təşkil edildi, bu natamam bir il ərzində şəhərdə titanik işlər görüldü və görülməkdədir. Artıq “Şuşa işğaldan əvvəl və sonra” fotoalbomu ilə yanaşı, “Şuşa işğaldan əvvəl, işğal aıtında olduğu zaman və işğaldan azad ediləndən sonra” fotoalbomunun yaradılmasına zərurət yaranmışdır.

Aşağıda yerləşdirdiyimiz şəkillər bir daha təsdiq edir ki, xalqımızın qədim və zəngin tarixi və mədiniyyəti var. Xalqımız daim zəngin tarixini qoruyub saxlayaraq gənc nəsillərə ötürməyə çalışıb. Nəticədə günümüzə zəngin tarixi irs gəlib çıxmışdır. Erməni qəsbkarları bu torpaqlara köçürüləndən sonra bütün bu tarixə sahib çıxmağa çalışmış, özününküləşdirə bilmədiyini isə məhv etmişdir. Biz Qarabağımızı işğaldan azad etməklə, öz tariximizi də işğaldan azad etdik və tarixi dəyərlərimiz olan memarlıq abidələrimizi yenidən bərpa etməyə başlamışıq. Bu şəkilləri seyr etdikcə bir daha onun şahidi olursan ki, xalqımız əsrlər boyu qurub-yaradan, düşmənimiz isə uçurub-dağıdan olmuşdur.

Şəkillər çox qısa zaman kəsiyini əhatə edir. Yəni görülmüş işlər cəmi bir neçə ay ərzində həyata keçirilmişdir. Özü də Qarabağda infrastukturun yaradılması sahəsində görülən titanik işlərin fonunda. Bu onun göstəricisidir ki, düşmən tərəfindən xarabazarlığa çevrilən doğma Qarabağımız, Şuşamız ən qısa zaman ərzində cənnətə çevriləcək, yenidən Azərbaycanımızın dilbər guşələrindən olacaq.







Bəstəkar Üzeyir Hacıbəylinin heykəli



Bəstəkar Üzeyir Hacıbəylinin heykəli. 1985-ci il



2019-cu il



2021-ci il




Şuşa qalasının “Gəncə qapısı”. Qalanın çöldən görünüşü. 1985-ci il




2016-cı il




2021-ci il









Molla Pənah Vaqifin məqbərəsi







Molla Pənah Vaqifin büstü







Molla Pənah Vaqifin məqbərəsi




Bülbülün Şuşadakı evinin küçədən görünüşü. İşğal zamanı binanın üzərindəki daş lövhələr və Bülbülün barelyefi ermənilər tərəfindən oğurlanmışdır. Bərpa prosesində yeni lövhə və barelyef hazırlanaraq əvvəlki yerinə vurulmuşdu.







Bülbülün evinin bağçası.
Şəkillər ötən əsrin 80-ci illərində, Şuşa şəhəri işğaldan azad ediləndən və ev bərpa ediləndən sonra çəkilib







Bülbülün evinin otaqlarından biri. Şəkillər ötən əsrin 80-ci illərində, Şuşa şəhəri işğaldan azad ediləndən və ev bərpa ediləndən sonra çəkilib. İşğaldan sonra Bülbülün şəxsi əşyalarından ibarət eksponatların hamısı işğalçılar tərəfindən oğurlanmış, ev yararsız hala salınmışdı. Ev uçmaq təhlükəsi ilə üz-üzə qalmışdır. Şuşa işğaldan azad ediləndən sonra əvvəlki görkəmində bərpa edilmiş, Bülbülün Bakı şəhərində yerləşən ev-muzeyindən bəzi əşyaları gətirilərək burada yenidən ev muzeyi təşkil edilmişdir.







Mamayı məhəlləsinin bulağı. Erməni işğalçıları şəhəri işğal edəndən sonra bulağın üzərindəki daş kitabəni məhv edərək, bulağın üzərinə həqiqəti əks etdirməyən məlumatlar yazmaqla saxtakarlığa əl atmışlar. Şuşa işğaldan azad ediləndən sonra bulaq qısa müddət ərzində bərpa edilmişdir. XIX əsrin sonlarında tikilmiş bulağın üzərindəki yazıya əsasən bulaq Səməd Ağa Cavanşirin vəsaiti hesabına inşa edilmişdir.




Görkəmli opera müğənnisi Bülbülün evinin bağçasında olan büstü. Şəkillər ötən əsrin 80-ci illərində, Şuşa şəhəri işğaldan azad ediləndən və ev bərpa ediləndən sonra çəkilib. Bülbülün ermənilər tərəfindən tanınmaz hala salınmış büstünün yanında yeni büst qoyulmuşdur. Eyni zamanda erməni işğalçılarının maddi və mənəvi dəyərlərimizə qarşı törətdiyi vəhşiliyi bütün dünyaya göstərmək məqsədi ilə işğalçılar tərəfindən zədələnmiş büst olduğu kimi saxlanılmışdır.



Xoca Mircanlı məhəlləsinin bulağı.
Şəkillər ötən əsrin 80-ci illərində, Şuşa şəhəri işğaldan azad
ediləndən və bulaq bərpa ediləndən sonra çəkilib.

Erməni işğalçıları qədim Şuşa şəhərini ermənniləşdirmək, erməni şəhəri kimi təqdim etmək məqsədi ilə hər cür iyrənc üsullara əl atırdılar. Məscidlərimizi dağıdır, yerdə qalan məscidlərə “fars məscidi” adı verir, yaşayış binalarının üzərinə güya burada XIX əsrdə hansısa ermənin yaşaması barədə saxta məlumat daşıyıcıları yapışdırır, evlərdə qalmış və azərbaycanlılara məxsus əşyaları bir yerə toplayaraq “muzey”lər yaradır, şəhərə qanunsuz səfərlər etmiş dırnaqarası turistlərə həmin əşyaları erməni maddi dəyərləri kimi təqdim edirdilər. Ancaq gücləri bundan artığına çatmırdı. Çünki Şuşa onların deyildi.

Yuxarıda sadaladığımız rəsmi xronikadan göründüyü kimi Şuşa işğaldan azad ediləndən sonra, qısa müddət ərzində burada çoxsaylı, əsasən də Şuşanın özünə aid mədəni tədbirlər təşkil edildi. Ermənilər Şuşaya o qədər yaddırlar ki, bu 28 il ərzində Şuşada bir dənə də olsun mədəni tədbir təşkil edə bilməmişdilər. Çünki Şuşanı Şuşa edən dəyərlərdən bixəbərdirlər, bu dəyərlər onlar üçün yaddır. Erməni işğalçıları bu illər ərzində görüntü yaratmaq məqsədi ilə bir neçə dəfə Şuşada “mədəni tədbir” adı altında özlərinə xas, barmaqla sayılacaq sayda yığıncaqlar təşkil edə bildilər. Belə “tədbir”lərdən biri Qarabağ zadəganlarının məşhur və çox dəyərli Qarabağ cins atlarının iştirakı ilə yarışlar təşkil etdikləri Cıdır düzündə keçirdikləri uzunqulaq yarışı, digəri isə barəsində qaldırılmış cinayət işi ilə əlaqədar Rusiyadan qaçıb qanunsuz olaraq Qarabağa gələn rusiyalı iş adamı German Sterliqovun arvadı Alyona Sterliqovanın Şuşada, Cıdır düzündə özünün geyim kolleksiyasının sərgiləməsi olub. Bütün bu dırnaqarası tədbirlər ermənilər tərəfindən Qarabağda inkişafın olmasına dair görüntü yaratmaq məqsədi ilə media vasitəsilə şişirdilərək təqdim edilirdi.



Ermənilərin Cıdır düzündə təşkil etdikləri uzunqulaq yarışları

Artıq bütün bu saxtakarlığa son qoyuldu. Haqq, ədalət güc yolu ilə və uğurlu siyasət nəticəsində öz yerini tutdu. Qədim tarixi kökləri olan bu diyarın əsil sahibləri öz maddi və mənəvi dəyərlərinə sahib çıxdılar. Ancaq bununla kifayətlənmədik və kifayətlənməyəcəyik. Möhtərəm Prezidentimizin yürütdüyü uğurlu siyasət nəticəsində biz bu müqəddəs torpaqlarımızda tarixi köklərimizi möhkəmləndirəcəyik. Bunun üçün qüdrətli dövlətimizin hər cür imkanı vardır. Bütün güc strukturlarımız Qarabağda öz fəaliyyətini yüksək peşəkarlıqla və vicdanla həyata keçirir, qarabağlıların, şuşalıların öz dədə-baba yurdlarına səfərləri təşkil edilir, ən qısa zamanda böyük qayıdış həyata keçiriləcək.

Atılan hər addım bizdə bu əminliyi möhkəmləndirir. 7-8 noyabr 2021-ci ildə Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva Vətən müharibəsində əldə edilən şanlı Qələbənin birinci ildönümü – Zəfər Günü münasibətilə təntənəli tədbirdə iştirak etmək üçün Qarabağımıza, Şuşamıza növbəti səfər etdilər. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev noyabrın 8-də Şuşada, Cıdır düzündə hərbçilər qarşısında çıxışında səsləndirdiyi fikirlər həm dünya ictimaiyyəti, həm də düşmənin özünə Azərbaycanın müstəqilliyinin və ərazi bütövlüyünün əbədi olacağı barədə bir mesaj oldu. Həmin çıxışında Prezident İlham Əliyev belə dedi: “Bundan sonra bu diyara Azərbaycan dili hakim olacaq, necə ki, tarixdə belə olub. Şuşa məscidində azan səsi, Cıdır düzündə muğam səsi, Vaqifin məqbərəsi önündə şeirlər səslənir. Bax, budur reallıq. Bunu biz əldə etmişik. Qarabağımızı ən qısa zamanda əsl cənnətə çevirəcəyik!”

Hər dəfə olduğu kimi, bu səfər çərçivəsində də Şuşamızda bir sıra əhəmiyyətli layihələrin təməli qoyuldu, görülən işlərə baxış keçirildi.

Səfər “Zəfər yolu”nun açılışı ilə başlandı. Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşanın Daşaltı kəndində məscidin təməlini qoydular. Şuşa şəhərinə daxil olandan sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşa Radio-Televiziya Yayım Stansiyasının təməlqoyma mərasimində iştirak etdilər. Daha sonra Şuşa Rayon Mərkəzi Xəstəxanasının təməli qoyuldu. Şəhərdə aparılan geniş miqyaslı təmir-bərpa işləri ilə tanış olmaq məqsədi ilə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada Aşağı Gövhər Ağa və Saatlı məscidlərində Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işləri, sonra isə Mehmandarovların malikanə kompleksində aparılan bərpa işləri ilə tanış oldular.

Səfər zamanı görülən işlərin ən əhəmiyyətlisindən biri də xalqımızı möhtəşəm Qələbəyə aparan 44 günün şərəfinə ölkə üzrə 44 min ağac əkilməsi aksiyası çərçivəsində Prezident İlham Əliyev və birinci xanım Mehriban Əli-

yevanın Cıdır düzündə ağac əkmələri oldu. Heydər Əliyev Fondunun layihəsi çərçivəsində "Regional İnkişaf" İctimai Birliyinin könüllüləri tərəfindən Topxana meşəsində də ağacəkmə aksiyası keçirildi.

Topxana meşəsi Şuşanın qədim tarixə malik nadir sərvətlərindəndir. Vaxtı ilə 80 minlik ordu ilə Şuşanı mühasirəyə almış Ağa Məhəmməd şah Qacar şəhəri bu ərazidən toplardan atəşə tutduğu üçün ərazi Topxana meşəsi adlandırılmışdır. Meşədə palıd, fıstıq, vələs, meyvə ağacları və yaşı bilinməyən müxtəlif növ başqa ağaclar da vardı. Ermənilər işğal dövründə şəhər və kəndlərimizlə bərabər təbii sərvətlərimizi də talamış, meşələrimizi qırmışlar. Bu müddət ərzində Topxanada minlərlə qiymətli ağac kəsilərək məhv edilib. Qədim Şuşanın Topxana meşəsini də əhatə edən ağacəkmə kampaniyası zamanı 3 hektar ərazidə dağdağan, göyrüş, saqqızağacı, qarağac əkildi, əraziyə 100 kiloqram palıd toxumu səpildi.

Səfər çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva VIII Qlobal Bakı Forumunun Şuşaya səfər edən iştirakçıları ilə də söhbət etdilər.

Günün sonunda Şuşamızda Zəfər günü münasibəti ilə dahi Üzeyir Hacıbəylinin əsərlərinin sədaları altında möhtəşəm atəşfəşanlıq oldu.




Zəfər yolunun açılışı



Daşaltı məscidinin təməlininin qoyulması




Şuşa Radio-Televiziya Yayım Stansiyasının təməlqoyma mərasimi



Şuşa Rayon Mərkəzi Xəstəxanasının təməlinin qoyulması



Aşağı Gövhər Ağa məscidində Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işləri ilə tanışlıq



Mehmandarovların malikanə kompleksində aparılan bərpa işləri ilə tanışlıq



VIII Qlobal Bakı Forumunun Şuşaya səfər edən iştirakçıları ilə söhbət







Cıdır düzündə hərbçilərlə görüş





Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva, Heydər Əliyev Fondunun layihəsi çərçivəsində "Regional İnkişaf" İctimai Birliyinin könüllüləri tərəfindən  Cıdır düzündə və Topxana meşəsində ağacəkmə aksiyasında yaxından iştirak etmişlər.




Zəfər günü münasibəti ilə möhtəşəm atəşfəşanlıq

Ölkə başçısının Şuşamıza olan sevgisini onun hər çıxışında, hər addımında duymaq, görmək olur. Ağır iş yükünün olmasına baxmayaraq Prezident İlham Əliyev Şuşanı ziyarət etmək üçün yaranmış hər fürsətdən istifadə edir. Tam olmayan bir il ərzində Şuşaya bu qədər səfər etmiş Prezident İlham Əliyev növbəti dəfə Şuşaya 24 dekabr 2021-ci ildə, özünün doğum günündə səfər etdi. Həmin gün, Şuşaya səfər etməmişdən əvvəl, Prezident İlham Əliyev Xocavənd rayonunun Hadrut qəsəbəsində hərbi hissənin açılışında iştirak etdi. Hərbçilər qarşısında çıxış edən cənab Ali Baş Komandan çıxışında bu sözləri də dedi: “Bir yox, iki yox, bir çox komando briqadaları artıq Azərbaycanda yaradılır və bu briqadalar istənilən hərbi vəzifəni icra etməyə qadir olacaqlar”. “Əgər Ermənistan yenidən bizim üçün təhlükə mənbəyi olmağa cəhd edərsə, onların axırı II Qarabağ müharibəsindəki kimi olacaqdır”.











Hərbi hissənin açılış mərasimində iştirak etdikdən sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyevə ailə üzvləri ilə birlikdə Şuşa şəhərinə gəldilər. Hər səfərdə olduğu kimi, Prezident Yuxarı Gövhər Ağa məscidində dualar etdi. Sonra Prezident ailə üzvləri ilə birlikdə Cıdır düzünü ziyarət etdi. Cıdır düzündə Prezidentin dediyi bu sözlər hər bir Azərbaycan vətəndaşı üçün çox böyük önəm daşıyır və daşıyacaq. İlham Əliyev: “Xalqımız birləşdi, bir amal uğrunda, bir müqəddəs ideya uğrunda birləşdi və istədiyinə nail oldu”. “Bu gün bir şeyə kədərlənirəm ki, atam bu günü görə bilmədi. Ancaq bilirəm ki, onun ruhu şaddır. Necə ki, Vətən həsrəti ilə yaşamış və həyatdan getmiş, azad edilmiş bu torpaqları görməyən minlərlə, on minlərlə məcburi köçkünlərin ruhu şaddır, şəhidlərimizin ruhu şaddır”.



Yuxarı Gövhər Ağa məscidində



Yuxarı Gövhər Ağa məscidinin qarşısında 4 yaşında Şuşa sakini Asif ilə



Cıdır düzündə

31 dekabr 2021-ci ildə Prezident İlham Əliyevin 2022-ci ili "Şuşa ili" elan etməsi isə hamımızı bir daha duyğulandırdı, Şuşa sevincimizə sevinc qatdı.

Prezident İlham Əliyev 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə Azərbaycan xalqına müraciətində bildirdi: "Biz 2022-ci ildə Şuşa şəhərinin 270 illiyini qeyd edəcəyik. Pənahəli xan 1752-ci ildə Şuşanın təməlini qoyub və biz yeni ildə bu yubileyi böyük təntənə ilə qeyd edəcəyik. Bu şanlı tarixi nəzərə alaraq və Şuşanın bərpasını sürətləndirmək məqsədi ilə mən yeni ili "Şuşa ili" elan edirəm".

Prezident İlham Əliyevin 2022-ci ili "Şuşa ili" elan etməsi hər birimizdə doğma Şuşamızın bərpası işinə öz töhfəmizi verməyə həvəsi daha da artırmış oldu. Bu qərar həm də böyük siyasi, tarixi və hüquqi əhəmiyyətə malikdir.

Aydındır ki, Prezident İlham Əliyevin 2022-ci ili "Şuşa ili" elan etməsi Şuşanın memarlıq abidələrinin bərpası ilə yanaşı, eyni zamanda mədəni həyatının və infrastrukturunun da dirçəldilməsinə yönəlmiş işlərin sürətlənməsinə səbəb olacaq.

Hər birimizin yaxşı yadındadır ki, 1977-ci ildə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan SSR Nazirlər Sovetinin "Şuşa şəhərinin tarixi hissəsini tarix-memarlıq qoruğu elan etmək haqqında" qəbul etdiyi qərarın uğurla icra edilməsi nəticəsində Şuşanın memarlıq və incəsənət abidələrinin rəsmən qeydə alınaraq bərpa edilməsi ilə yanaşı, şəhərin sosial-iqtisadi və mədəni həyatının dirçəldilməsi üçün də xeyli iş görülmüşdür.

Bu səbəbdən 2022-ci ilin "Şuşa ili" elan edilməsi hər baxımdan çox önəmlidir. Ona görə də bu tarixi xəbər həm Azərbaycanda, həm də ölkəmizin hüdudlarından kənarda yaşayan soydaşlarımız və Azərbaycanı sevən hər kəs tərəfindən minnətdarlıq və məmnunluqla qarşılandı.




Çox sevindirici haldır ki, qədim Şuşamızın əvvəlki tarixi görkəmini özünə qaytarmaq üçün bu illər ərzində kifayət qədər material, şəkil və ən əsası həyatda olan insanların xatirələri toplanılaraq saxlanılıb. Bütün bu əvəzolunmaz mənbələrdən yüksək peşəkarlıqla istifadə olunacaq və mədəniyyət paytaxtımız olan Şuşa əvvəlki kimi öz gözəlliyi ilə hər kəsi heyran qoyacaq.

# İstifadə olunmuş mənbələr, ədəbiyyat, veb saytlar və veb səhifələr


1. Firudin Şuşinski. Şuşa – Bakı, 1998
2. Elturan Avalov. Şuşa qrafika – Bakı, 2008
3. Elturan Avalov. Şuşa şəhərinin memarlığı – Bakı, 1977
4. Çingiz Qacar. Köhnə Şuşa – Bakı, 2019
5. İsmayıl İsmayılov. Azərbaycan mirvarisi Şuşa – Bakı, 2015
6. Yunis Hüseynov. Şuşa salnaməsi – Bakı, 2015
7. 30.08.2021-ci il tarixdə Şuşada təşkil edilmiş Vaqif Poeziya Günlərinin gündəliyi
8. Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi Dövlət kino – foto sənədləri Arxivi
9. “Şuşa” turist bukleti. 1983
10. İlham Əliyev: «Əziz Şuşa, biz qayıtmışıq!» Bakı - 2021
11. “Sovet Azərbaycanı” jurnalının 1986-cı il tarixli buraxılışı
12. “Şuşaya pəncərə/Окно в Шушу” Facebook səhifəsi
13. https://www.facebook.com/shusha.azerbaijan.9/
14. https://www.facebook.com/groups/Shusha.Azerbaijan
15. https://www.facebook.com/ismailismailov1975
16. https://www.facebook.com/PresidentIlhamAliyev
17. https://www.facebook.com/LiderIlhamAliyev
18. https://www.facebook.com/1stVicePresident
19. http://www.loqotip.az/material-details/431?fbclid=IwAR2Fft3Rn7rzpMhJ-dkoVnWCdfBwWcNKgVUVCAKB9AxbSjS4A9zUcpChsLz0
20. https://www.facebook.com/uzeyir9
21. https://www.facebook.com/rafael.gulmamedli
22. https://karabakh.center/az/c-18/susa
23. https://www.facebook.com/groups/505902369874790

24. https://www.facebook.com/azadshusha
25. https://ikisahil.az/post/249215-shushada-uzeyir-hacibeyli-beynelxalq-musiqi-festivalinin-konserti-kechirilir
26. Şuşanın işğal altında olduğu zamanı əks etdirən şəkillər açıq internet resurslarından götürülüb.
27. Şuşaya aid ötən əsrin 80-ci illərində çəkilmiş şəkillər Fətəli Fətəliyev, Viktor Sokirko, B.Cəfərov, M.Şərifov, İ.Cəfərov və Rza Diqqəti tərəfindən çəkilib. Eyni zamanda "Şuşa 1973", "Şuşa 1978", "Natəvan" televiziya filmləri, "Uzun ömrün akkordları" filmindəki kadrlardan istigadə edilmişdir.
28. Kitabın üz qabığı Xatirə Qasımova tərəfindən hazırlanıb.
29. Şuşanın işğaldan azad ediləndən sonrakı durumunu əks etdirən şəkillər 2021-ci ilin may -iyun müəllif tərəfindən çəkilib.

## Kitabın içindəkilər

Müəllifdən....................................................................................5
Bizim Qala ....................................................................................6
Şuşa işğaldan əvvəl və işğaldan sonra ...............................................26
Şuşa işğaldan azad ediləndən sonra .................................................159
İstifadə olunmuş mənbələr, ədəbiyyat, veb saytlar və veb səhifələr.....203

**Müəllif: İsmayıl Aydın oğlu İsmayılov, Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının üzvü, email shusha.azerbaijan@mail.ru**
**Tel. Mob. +99450-216-20-21**

İsmayıl İsmayılov

# Bizim Qala

**Mətbəənin direktoru:** ***Elman Qasımov***
**Dizayner:** ***Azər Aydın***

Çapa imzalanmışdır: 21.03.2022.
Formatı 70x100 1/16.
Həcmi 13 ç.v. Sifariş № 49. Tiraj 300

"Zərdabi Nəşr" MMC Nəşriyyat Poliqrafiya müəssisəsi
Tel.: (012) 514 73 73, (050; 055; 070) 344 76 01
e-mail: zerdabi_em@mail.ru